Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

7 MART 2020-ci il

№ 42 (4173)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# MƏMURLARIMIZIN KABİNET GEYİMLƏRİ - MƏMUR ETİKASI VƏ SANBALININ ƏSAS GÖSTƏRİCİLƏRİNDƏN BİRİ KİMİ...

■ səh. 5 ■

İntensiv atəşkəs pozuntularının sirri - Paşinyanın Qarabağ siyasətində davam etdirdiyi uğursuzluqlar...

■ səh. 9 ■

Ankara və Moskvanın İdlib anlaşması İrəvanı yasa boğdu

■ səh. 8 ■

Azərbaycanda karantin normalarını pozan hər bir şəxsə qarşı qanuna uyğun şəkildə tədbirlər görüləcək

■ səh. 2 ■

Yəhudilərə qarşı Hitlerlə əlbirlikdə suçlanan Papa XII Piyin arxivlərinin açılmasının pərdəarxası...

■ səh. 5 ■

Azərbaycanın səhm strategiyası ölkəni koronavirus dövrünün yeni böhranından xilas edə biləcək...

■ səh. 10 ■

Azərbaycanda "feminizm hərəkatı"? - Qadınlara hansı ayrıseçkilik var ki...

■ səh. 12 ■



■ səh. 4 ■

## Ən azı Azərbaycan tarixindən anlayışsız icra başçılarımız...



Başçıların rayona kənardan investisiya cəlbinin «buzu hələ sınmır» - Prezident bəzi səbəbləri açdı...

■ səh. 3 ■

Naqislik edən başçılar bir-bir vurulur, bəs belələrini Prezidentə təqdim etmiş «lobbiçilər» niyə məsuliyyət daşımır...

■ səh. 3 ■



Azərbaycanda «svinq ailələr»? - ölkəmizin ailə dəyərlərini ləkələməyin yeni üsulunu tapıblar...

■ səh. 14 ■

■ səh. 6 ■

Prezidentin əsaslı irad tutduğu "şikəst xəritə" Mədəniyyət Nazirliyindən Tovuza necə göndərilib...



■ səh. 7 ■

Soçi razılaşması 2 il sürdü, Putinlə Ərdoğanın Moskva razılaşması nə qədər davam edəcək...



■ səh. 4 ■

Paşinyan Gürcüstana bir neçə günlük səfərdə heç bir sənəd imzalaya bilmədi...



■ səh. 15 ■

Diyarşünaslıq muzeylərinin idarəçiliyinin mərkəzləşdirilməsi - muzeylər arasında qəribə "alış-veriş" barədə söz-söhbətlər dolaşır



■ səh. 11 ■

Rektorların dissertasiya şuralarına rəhbərlik təcrübəsi və Azərbaycan mühitində onun fəsadları...





# Sərhədçi əsgərin ölümünə görə tam məsuliyyət işğalçı Ermənistanın üzərinə qoyuldu

**Bu ilin 5 mart tarixində Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində Ermənistan silahlı qüvvələri atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozub.**

Düşmən qüvvələrin snayperdən açdığı atəş nəticəsində Qazax rayonu Quşçu Ayrım kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsindəki sərhədçi əsgərimiz Orxan Nazim oğlu Paşazadə qətlə yetirilib.

Baki-xeber.com-un məlumatına görə, bu barədə Azərbaycan XİN Mətbuat Xidməti idarəsi insidentlə bağlı açıqlama yayıb.

Açıqlamada bildirilir ki, baş verən bu qanlı insident məqsədyönlü təxribat xarakteri daşıyır və bu cinayətə görə tam məsuliyyət işğalçı ölkə Ermənistanın üzərindədir.

"Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyan hərbi qulluqçumuzun qətlə yetirilməsi işğalçı Ermənistanın münaqişənin sülh yolu ilə həlli çağırışlarının yalan və riyakarlıqdan başqa bir şey olmadığını açıq şəkildə nümayiş etdirir. Məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu kimi cinayətkar və dağıdıcı fəaliyyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə və beləliklə də ATƏT-in Minsk Qrupunun həmsədrləri simasında beynəlxalq ictimaiyyətin səylərinə birbaşa maneə törədir.

Allah şəhidimizə rəhmət eləsin", - deyə açıqlamada qeyd olunub.

Martın 6-da Ermənistan mətbuatında Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində Azərbaycan tərəfinin diversiya keçirməsi və nəticədə Ermənistan Silahlı Qüvvələrinin 1 nəfər hərbi qulluqçunun yaralanması barədə məlumatlar yayılıb.

Dövlət Sərhəd Xidmətindən (DSX) verilən məlumata görə, DSX-nin hərbi qulluqçuları tərəfindən diversiya keçirilməsi barədə məlumat həqiqətə uyğun deyil və reallığı əks etdirmir:

"Mart ayının 6-da səhər saatlarından başlamaqla Qazax rayonunun Cəfərli kəndi istiqamətindəki sərhəd döyüş məntəqələrimiz ER-nın İcevan rayonunun Sevkar və Sarıquyuq kəndləri yaxınlığında yerləşən Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən iriçaplı silahlardan və snayper tüfənglərindən intensiv atəşə tutulub.

Düşmən təxribatının qarşısı alınıb, sərhəd döyüş məntəqələrimizə qarşı atəşin açıldığı Ermənistan Silahlı Qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub".

## Azərbaycan koronavirusla mübarizəyə 5 milyon dollar yardım ayırdı

**Azərbaycan Respublikası dünyada koronavirus infeksiyasının yayılma risqinin qarşısının alınması istiqamətində beynəlxalq birliyin səylərinə töhfə məqsədilə ÜST-nin "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVID-19 müraciəti" adlı Fonda 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımının verilməsi barədə qərar qəbul edib.**

Baki-xeber.com-un xəbərinə görə, Azərbaycan Respublikası ÜST-nin qlobal miqyasda COVID-19 virusuna qarşı mübarizə səylərini yüksək qiymətləndirir. ÜST-nin COVID-19 virusu ilə bağlı tövsiyələri Azərbaycan tərəfindən nəzərə alınır və tətbiq olunur.

Azərbaycan Respublikasının ÜST ilə səmərəli əməkdaşlığı davam edir və 2020-ci il martın 8-də ÜST ekspertlərindən ibarət nümayəndə heyəti ölkəmizə səfər edəcək.

## Azərbaycan İƏT-in Nigerdəki humanitar və inkişaf idarəsinə 100 min dollar yardım edib



**Afrikanın Sahel regionunda gərgin sosial-iqtisadi vəziyyətlə bağlı İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzv dövlətlərə etdiyi müraciətə cavab olaraq, Prezident İlham Əliyevin göstərişilə AR Nazirlər Kabineti tərəfindən İƏT-in Nigerdəki humanitar və inkişaf idarəsinin İƏT Regional Ofisə çevrilməsinə dəstəyin verilməsi məqsədilə 100 min ABŞ dolları həcmində yardım edilib.**

Azərbaycan Xarici İşlər Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, İƏT-in sözügedən idarəsinin Regional ofisə çevrilməsi ilə əlaqədar qərar 1-2 mart 2019-cu il tarixlərində Əbu-Dabidə keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının 46-cı sessiyası və ötən ilin 31 may tarixində Məkkədə keçirilmiş İƏT-in Dövlət və Hökumət başçılarının 14-cü Sammitində qəbul olunub.

## OPEK neft hasilatının kəskin azaldılmasını ilin sonuna qədər uzatmağı təklif edib

**OPEK nazirləri arasında əlavə qeyri-rəsmi məsləhətləşmələr keçirilib.**

"Trend"in "TASS"a istinadən verdiyi məlumata görə, OPEK nazirləri OPEK+ üzrə müttəfiqlərinə neft hasilatının kəskin azaldılmasını 2020-ci ilin sonuna qədər uzatmağı təklif edib.

Bildirilir ki, OPEK bu təklifi koronavirus səbəbilə tələbin azalmasını qarşılamaq üçün edir.

# Azərbaycanda karantin normalarını pozan hər bir şəxsə qarşı qanuna uyğun şəkildə tədbirlər görüləcək

**Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üzrə profilaktik tədbirlər davam etdirilir. Hazırda bununla bağlı müvafiq maarifləndirici, eyni zamanda tibbi baxımdan tədbirlər həyata keçirilir, ictimai məkanlarda dezinfeksiya işləri aparılır və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq digər zəruri addımlar atılır.**



Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, Azərbaycan ərazisinə keçən şəxslər, həmçinin ölkə ərazisindəki vətəndaşlarda visurun əlamətləri aşkarlandıqda təlimata uyğun olaraq karantinə götürülərək müvafiq xəstəxanalara yerləşdirilir, həmin müddətdə müəyyən testlər və müalicə aparılır.

Təəssüflə bildiririk ki, koronavirus xəstəliyinin əlamətləri olan şəxslər bəzi hallarda həkim briqadalarına qarşı zor tətbiq edir, çağırışa gələn təcili tibbi yardım heyətinə müvaqimət göstərərək həkim nəzarətinə götürülməkdən yayınmağa çalışır.

Bununla əlaqədar əhaliyə müraciət edərək bildiririk ki, virusun əlaməti aşkarlanan şəxsin həkim nəzarətinə götürülməsi onun müalicəsinin aparılması zərurəti ilə yanaşı, ailə üzvlərinin, ətrafdakı şəxslərin virusa yoluxmaması baxımından vacibdir. Bununla həmin şəxs özü və yaxınlarının səhhətinin qeydinə qalmış, həmçinin virusun ölkə ərazisində yayılmasının qarşısını almış olacaq.

Qeyd edirik ki, karantin normalarını pozan, tibbi heyətin normal iş rejiminə mane olan hər bir şəxsə qarşı qanunun tələblərinə uyğun şəkildə tədbirlər görüləcəkdir. Eyni zamanda vətəndaşlarımıza virusdan qorunmaq üzrə gigiyena təlimatlarına riayət etməyi, insanların kütləvi toplaşdığı məkanlarda olmamağı, ciddi zərurət yaranmadığı halda xarici ölkələrə səfərlərini müvəqqəti ertələməyi tövsiyə edirik.

# Bakıda 8 nəfərdən ibarət iranlı ailə karantinə alındı...

**Martın 4-də Bakıda məskunlaşan İran İslam Respublikasından olan ailənin azyaşlı üzvlərindən birində yüksək hərarət olduğundan təcili tibbi yardıma müraciət edilib.**

Bu barədə "Trend"ə TƏBİB-dən bildirilib.



İlkin araşdırma zamanı müəyyən edilib ki, ailə başçısı koronavirus xəstəliyinin geniş yayıldığı İran İslam Respublikasından 27 fevral 2020-ci il tarixində Azərbaycan ərazisinə gəlib. Bu səbəbdən profilaktik məqsədlə və zəruri ilkin testlərin edilməsi üçün ailənin bütün üzvlərinin ilkin müayinələrdən keçməsinə qərar verilib. Təcili tibbi yardım maşını ilə ailənin digər üzvlərinin (6-sı uşaq olmaqla 8 İran vətəndaşı) də xəstəxanaya aparılması məqsədəmüvafiq hesab olunub. Bu zaman onlar həkim briqadasına müqavimət göstərdikləri üçün hadisə yerinə polis əməkdaşları çağırılıb.

Hazırda müəyyən olunmuş karantin müddətinə uyğun olaraq bütün ailə üzvləri xəstəxanada müşahidə altında saxlanır.

# Başçıların rayona kənardan investisiya cəlbinin "buzu hələ sınmır" - Prezident bəzi səbəbləri açdı...

**"Həm xarici investorları, həm də yerli investorları cəlb etmək üçün hər bir rayonun başçısı fəal işləməlidir". Bunu Prezident İlham Əliyev Nahid Bağırovu İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, Mirhəsən Seyidovu isə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən deyib.**

*"Sahibkarları kənarlaşdırıb, bütün gəlir mənbələrini öz yaxınlarının adına keçirərək, qeyri-rəsmi bizneslə məşğul olurlar"*

Ölkə başçısının sözlərinə görə, icra başçılarının əsas işi rayonda mövcud olan potensialı səfərbər edib, həm iqtisadi artımı təmin etmək, həm də rayonlara sərmayənin gətirilməsinə nail olmaqdan ibarətdir: "Həm xarici investorları, həm də yerli investorları cəlb etmək üçün hər bir rayonun başçısı fəal işləməlidir. Bu tapşırıqları mən əvvəllər də vermişəm. Bəzi rayonlarda bu sahədə yaxşı nəticələr var, bəzi rayonlarda investisiya qoyuluşu zəifdir. Bunun obyektiv səbəbləri də ola bilər. Rayonların potensialı eyni deyil, amma buna baxmayaraq, hesab edirəm ki, Azərbaycanın müasir infrastruktur potensialını nəzərə alaraq hər bir rayon investorlar üçün cəlbedici ola bilər. Sadəcə olaraq, yerli icra orqanlarının rəhbərləri oturub bu investisiyaları gözləməməlidirlər. Özləri fəal olmalıdırlar, özləri investorları tapmalıdırlar, onları inandırmalıdırlar və cəlb etməlidirlər. Bəzi hallarda bəzi rayonlarda investor vəsait qoymaq istəyir, amma əfsuslar olsun ki, onun qarşısında süni əngəllər törədilir. Yaxud da ki, yerli icra orqanları ona qarşı əsassız və qanunsuz tələblər irəli sürürlər. Ona görə bu hallara qarşı çox ciddi mübarizə aparılmalıdır".

O da məlumdur ki, bundan əvvəl də ölkə başçısı rayon icra hakimiyyəti başçılarına xarici investisiyanın cəlbi ilə bağlı göstəriş vermişdi. Təəssüflər olsun ki, bu sahədə əsaslı irəliləyişə nail olunmayıb. Bunun əsas səbəbi bir sıra icra başçılarının sərmayələrin cəlbi ilə bağlı yetərincə təşəbbüs göstərməməsidir. Elələri var ki, hansısa maraqlarına görə sərmayədarlar üçün cəlbedici şərait yaratmırlar. Görünən odur ki, bu sahədə hələ xeyli görüləsi iş var.

Maraqlıdır, icra başçıları rayonlara niyə sərmayə cəlb edə bilmirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, bir sıra icra başçıları xarici investisiyanın cəlbini bacarmırlar: "Problem ondadır ki, bir sıra icra başçılarının bununla bağlı bacarığı yoxdur. O səbəbdən müasir dövrün tələbləri ilə ayaqlaşa bilmirlər. Eləsi var ki, investisiya haqqında düz-əməlli anlayışı belə yoxdur. Bu nöqteyi-nəzərdən Prezident İlham Əliyev son dövrdə belə kadrları vəzifədən kənarlaşdırır. Hesab edirəm ki, işinin öhdəsindən gələ bilməyən icra başçıları vəzifələri ilə vidalaşmalıdırlar. Daha bacarıqlı kadrlara önəm verilməlidir.

**Fuad İbrahimov:** *"Problem ondadır ki, bir sıra icra başçılarının bununla bağlı bacarığı yoxdur"*



İnvestisiya cəlb etməkdən ötrü icra başçısı, birincisi, rayonda bunun üçün mühit yaratmalıdır. Başlıca şərt budur. İcra başçıları bunu etmək əvəzinə, özlərini rayonun "xozeyni" kimi aparırlar. Hansı ki, bu belə olmamalıdır. İcra başçısı dövlət məmuru olaraq rayona can yandırmalıdır. Hər bir sahibkara şərait yaradılmalıdır ki, o, sərmayə qoymaqda maraqlı olsun. Çox təəssüflər olsun ki, icra hakimiyyəti orqanları bunu etmək istəmirlər. Əksinə, sahibkarları kənarlaşdırıb, bütün gəlir mənbələrini öz yaxınlarının adına keçirərək, qeyri-rəsmi bizneslə məşğul olurlar. Belə icra başçıları da zaman-zaman vəzifəsindən kənarlaşdırılır. Hesab edirəm ki, bu kimi problemlər birdəfəlik aradan qalxmadan, sözügedən sahədə çətinliklər olacaq".

***Vidadi ORDAHALLI***

# Naqislik edən başçılar bir-bir vurulur, bəs belələrini Prezidentə təqdim etmiş "lobbiçilər" niyə məsuliyyət daşımır...

**Prezident İlham Əliyev keçirdiyi iclaslarda dövlətin korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə ardıcıl olacağını, belə əməllərə meyllənən vəzifə sahiblərinin ciddi şəkildə cəzalandırılacağını dəfələrlə bəyan edib. Həmçinin, işində nöqsanlara, qanunsuz əməllərə yol verən məmurların postlarını itirəcəklərini açıqlayıb.**



**İlqar Hüseynli:** *"Nöqsanlara yol verən icra başçılarını bir vaxtlar təqdim edənləri də lazım gələndə cəzalandırmaq lazımdır"*

Proseslər əvvəlcədən bəyan olunan siyasi xəttə uyğun şəkildə davam etdirilir. Bu həm də dövlət başçısının iradəsidir. Ölkə başçısı icra başçılarını, nazirləri vəzifəyə təyin edərkən onların qarşısında konkret tələblər qoyur: xalqa xidmət edin, vəzifədən sui-istifadə etməyin, vətəndaşları incitməyin. Hər dəfə açıq şəkildə xəbərdarlıq edir ki, kim çirkin əməllər arxasınca gedəcəksə, layiqli cəzasını alacaq.

Müşahidələr göstərir ki, tələblərə riayət etməyən və fəaliyyətində ciddi səhvlərə yol verən icra başçıları vəzifəsindən kənarlaşdırılırlar. Ciddi naqisliklərə yol verib korrupsiya ilə məşğul olanlar həbs edilir. Cəmiyyət də Prezidentin elan etdiyi islahat kursunu və islahatlara qarşı çıxanların sərt şəkildə cəzalandırılmasını təqdir edir. Cəmiyyət görür ki, ölkə başçısı Azərbaycanda rüşvətin, korrupsiyanın, məmur özbaşınalığının kökünü kəsmək üçün ortaya siyasi iradə qoyur. O da məlumdur ki, son aylar vəzifə səlahiyyətlərini aşaraq bir sıra nöqsanlara yol verən icra başçıları barəsində cinayət işi açılıb. Hansı ki, onlar göstərilən etimadı doğrultmayıblar.

Ancaq o da var ki, naqisliyə yol verən icra başçılarını bir vaxtlar Prezidentə təqdim edən, onlara müəyyən mənada zəmanət verən şəxslər də olub. Hansı ki, sözügedən təqdimata uyğun olaraq, həmin icra başçılarına etimad göstərilib. Ancaq onlar etimadı doğrultmayıblar. Bütün hallarda, özünü doğrultmayan icra başçılarını təqdim edənlər də buna görə məsuliyyət daşıyırlarmı? Onların da cəzalandırılmasına ekspertlər necə yanaşırlar?

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, nöqsanlara yol verən icra başçılarını bir vaxtlar təqdim edənləri də lazım gələndə cəzalandırmaq lazımdır: "Çünki onların da bu və ya digər dərəcədə burada məsuliyyət payı var. Belələri təqdim olunur və Prezident də onlara etimad göstərir. Ancaq sonra məlum olur ki, həmin icra başçıları onlara göstərilən etimadı doğrultmayıblar. Etimadı doğrultmayan icra başçısı cəzalandırılır, amma onu təqdim edən, ona zəmanət duran şəxs kənarda qalır. Hesab edirəm ki, yanaşma dəyişməlidir. Yəni təqdimat verən şəxs də müəyyən məsuliyyət daşımalıdır. Belə olarsa, o zaman təqdimatı verən şəxs daha məsuliyyətli hərəkət edəcək. Bir məqamı da qeyd edim ki, təqdimatda kimsə səhv də edə bilər, yanıla da bilər. Təqdimatdan sonrakı dönəmdə o kadrın görünməyən xüsusiyyətləri ortaya çıxa bilər. Belə məqamlar da var. O üzdən, bütün nöqsanlara yol verən icra başçılarına görə onları təqdim edən şəxsləri ucdantutma cəzalandırmaq da doğru olmaz. Hesab edirəm ki, məsələnin bu tərəfini də nəzərə almaq lazımdır. Bütövlükdə, Prezident Administrasiyası tərəfindən işə qəbul olunan istənilən vəzifə sahibi barədə araşdırma aparılmalıdır. Təyin edilən icra başçısının bioqrafiyası, fəaliyyəti ilə bağlı şəffaf araşdırma aparılmalıdır. Hesab edirəm ki, bu kimi məqamlara diqqət edilərsə, o zaman belə neqativ halları önləmək olar".

*"Çünki onların da bu və ya digər dərəcədə burada məsuliyyət payı var"*

***Vidadi ORDAHALLI***

Məlum olduğu kimi, Tovuzda Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edən Prezident İlham Əliyev muzeydə nümayiş olunan tarixi xəritələrlə bağlı iradlarını bildirib: "Bu, neçənci əsrin xəritəsidir? Gərək yazılsın. Hər bir xəritədə yazılmalıdır neçənci əsrə aiddir, çünki dövlətlər dəyişib, sərhədlər dəyişib. Bu xəritəni siz haradan götürmüsünüz?"

# Ən azı Azərbaycan tarixindən anlayışsız icra başçılarımız...



## Qabil Hüseynli: "Millətin, dövlətin adı ilə olan bütün detalları bilmək onların borcudur"

Tovuz rayonunun icra başçısı cavabında bildirib ki, xəritəni Mədəniyyət Nazirliyi onlara təqdim edib.

Prezident İlham Əliyev xəritənin tərtibatına ciddi iradlarını bildirib: "Qədim adlar, məsələn, Sisian yazılıbdır. O vaxt Sisian adı yox idi, sonra kimsə bunu uydurub. Xəritədə indiki Azərbaycan ərazisində Mingəçevirdən başqa heç bir tarixi ad yazılmayıb. Halbuki, Bərdə, Qəbələ, Naxçıvan - bütün bunlar qədim şəhərlərimiz olub. Ona görə soruşuram, bu, hansı əsrə aiddir? Çünki bu xəritədən heç nə başa düşmək mümkün deyil. Qafqaz Albaniyası dövləti də burada göstərilmir. Amma baxın, bu Urartu hansı hərflərlə yazılıb. Ona görə buna baxmaq lazımdır. Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayın, xəritələr həm dəqiq olmalıdır, həm də bunun tarixi göstərilməlidir.

Bu xəritə də bilinmir hansı tarixə aiddir. İndiki Azərbaycan ərazisində heç bir şəhərin adı yoxdur. Var buna cavab? Xəritə asmısınız, hesab edirsiniz ki, bununla iş düzəlir? Bu xəritə bizim tariximizdir. Uşaqlar gəlib bu xəritədən bu tarix haqqında nə başa düşəcəklər? Heç bilinmir nədir bu. Özü də haradan götürmüsünüz Allah bilir. Buna belə yanaşmaq olmaz. Eksponatları doldurursunuz, hesab edirsiniz ki, bununla iş bitir? Özü də uşaq otağıdır. Uşaq gəlib soruşacaq ki, bu nədir, mənim məmləkətim nədir? Haradadır mənim qədim şəhərlərim? Onun əvəzinə orada Urartu görürük".

Bu mənzərə həm xəritənin hazırlanmasına məsul olan qurumun səhlənkarlığını üzə çıxarmış olur, həm də həmin xəritəni Prezidentə göstərən icra başçısının tarixi bilgisinin zəif olmasını. Çünki icra başçısı tarixi yaxşı bilsəydi, həmin səhvləri əvvələcədən müəyyən edərdi və səhvlərlə dolu olan xəritəni ölkə başçısına göstərməzdi. Ola bilər ki, icra başçıları hər hansı sahənin gözəl mütəxəssisidir. Ancaq onlar Prezidentin yerlərdəki nümayəndələri olduqları üçün, eyni zamanda, siyasi bir postun daşıyıcıları sayılırlar. Belə şəxslərin mütləq mənada Azərbaycan tarixini dərindən bilməsi çox vacibdir. Hər halda, icra başçıları belə bilgiyə yiyələnsəydilər, biz son mənzərə ilə rastlaşmazdıq. Ümumiyyətlə, icra başçılarının Azərbaycan tarixini mütləq dərindən bilməsi ilə bağlı tələbə ekspertlərin yanaşması necədir?

Sabiq dövlət müşaviri Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, tutduğu vəzifədən asılı olmayaraq, hər bir vətəndaş öz tarixini dərindən bilməlidir: "Hətta mən deyərdim ki, həmin adam öz ölkəsinin həm də ədəbiyyatı, fəlsəfəsini bilmirsə, ona nə ziyalı demək olar, nə də idarəçi. İcra başçısı, başqa ixtisasın sahibi olmaq o demək deyil ki, sən Azərbaycan dövlətçiliyi tarixini bilməyəsən. Deyilən mənzərədən göründü ki, icra başçısının tarixdən və xəritədən elementar anlayışı belə yoxdur. Belə mükəmməl təhsili, dünyagörüşü olmayan şəxsləri məmur korpusunda görmək adama çox pis təsir edir. Prezident həmin gün icra başçısına bir tarix dərsi verdi. Ona çox incə formada başa salındı ki, asdığı xəritədə şəhərlərimizin adı düzgün yazılmayıb. Urartu yazılıb, amma həmin dövrdə mövcud olan Azərbaycan dövləti haqda zərrə qədər də məlumat verilməyib. Bütün bunlar bir daha sübut edir ki, insanlar mənsub olduqları dövlətin tarixini mütləq bilməlidirlər. Xüsusilə də vəzifə başında olanlar üçün bu, məcburi norma olmalıdır. Ermənilərin dövlətçiliyi olmaya-olmaya, yalan tarix yazırlar. Biz isə olanları yazmağa ərinirik. Urartu dövlətinin Ermənistana heç bir aidiyyəti yoxdur. Tamamilə konqlamerat sayılan, bir çox etnosun yaşadığı dövlət olub, qısa müddət ərzində də dağılıb gedib. Azərbaycanın isə dövlətçilik darixi çox dərindir. Bunu xəritəyə əks etdirmək nə böyük işdir ki? Məncə, icra başçısı orada yalan danışdı. Çünki xəritəni Mədəniyyət Nazirliyi hazırlamır. O tip xəritələrin hazırlanmasına Elmlər Akademiyasının bəzi institutları məsul olur. İcra başçısı tarixi bilik səviyyəsi cəhətdən çox kasad təsir bağışladı. Bununla bağlı ciddi tədbirlər görülməlidir. Lazım gəlsə, kurslar təşkil edib onlara zəruri bilikləri aşılamaq gərəkdir. Millətin, dövlətin adı ilə olan bütün detalları bilmək onların borcudur".

*Məhəmmədəli QƏRİBLİ*

---

Məlum olduğu kimi, Ermənistanın Baş naziri Nikol Paşinyan martın 3-4-də Gürcüstana rəsmi səfər edib. Paşinyan Baş nazir Georgi Qaxariya, Prezident Salome Zurabişvili, Xarici İşlər naziri David Zalkaliani, Gürcüstan patriarxı II İlya və spiker Arçil Talakvadze ilə görüşüb.

# Paşinyan Gürcüstana bir neçə günlük səfərdə heç bir sənəd imzalaya bilmədi...



## Mübariz Əhmədoğlu: "İkitərəfli sənədlərin imzalanmamasının kökündə siyasi faktorlar dayanır"

Maraqlı məqam ondan ibarətdir ki, rəsmi səfəri zamanı Tiflisdə ikitərəfli sənədlər imzalanmayıb, razılaşma və ümumi baxışları özündə əks etdirən bəyannamə səsləndirilməyib. Paşinyan bildirib ki, gürcü rəsmiləri ilə nəqliyyat, energetika, telekommunikasiya, təhsil və regional təhlükəsizlik sahələrində əməkdaşlıq məsələlərini müzakirə edib. Tərəflərin ehtiyatlı diplomatik açıqlamaları özünü açıq şəkildə göstərib. İki ölkənin istifadə edilməmiş böyük potensialı olduğunu bəyan edən Paşinyan bu potensiallardan istifadə edilməsini gürcü həmkarına məsləhət görüb. Paşinyana görə, İrəvan və Tiflisdə iqtisadi əməkdaşlığı yeni səviyyəyə qaldırmaq üçün bir çox imkan mövcuddur. Ancaq o bunun nədən ibarət olduğunu açıqlamayıb.

Bu arada "Qolos Armenii" saytı əvvəlki erməni rəhbərləri kimi, Paşinyanın da gürcülərlə "işbirliyi" ilə bağlı danışıqlarının nəticəsiz qalacağına əmindir. Sayt bununla bağlı yazıb ki, ortada real nəticə yoxdur: "Ermənistanın iqtisadi əməkdaşlıq baxımından Avrasiya İqtisadi Birliyi ilə Avropa Birliyi arasında körpü rolu oynayacağı barədə artıq 5 ildən artıqdır fikirlər dolaşır. Amma bunun hələ ki, real bir nəticəsi yoxdur. Məhz bu baxımdan Paşinyanın dediklərində elə də bir orijinallıq görünmür".

Görünən odur ki, Paşinyanın Tiflisdə keçirdiyi görüşlər fikir mübadiləsindən başqa bir şey olmayıb. Hər hansı rəsmi müqavilə və bəyanat imzalanmayıb. Maraqlıdır, bunun səbəbini ekspertlər nə ilə izah edirlər?

Məsələyə münasibət bildirən Siyasi İnnovasiyalar və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, ikitərəfli sənədlərin imzalanmamasının kökündə siyasi faktorlar dayanır: "Gürcüstanın Baş naziri Georgi Qaxariya Paşinyanı qəbul edərkən açıq mətnlə bildirdi ki, Gürcüstan üçün Ermənistanla münasibətlərdə əvvəlcə sülh və təhlükəsizlik məsələləri, sonra iqtisadi əlaqələr və kommunukasiya məsələləri. Bunu Qaxariya Paşinyana açıq şəkildə dedi. Gürcüstanın dövlət rəsmiləri bu vaxta qədər bunu Ermənistan dövlət başçılarına deyiblər. Ancaq belə açıq şəkildə yox. Bu söhbətlər əvvəllər əsasən bağlı qapı arxasında olurdu. Qaxariya isə mətbuatın iştirakı ilə keçirilən görüşdə bunu səsləndirdi. Məsələ ondadır ki, Gürcüstan 5 ildir Ermənistanla hücum etməmək barədə müqavilə imzalamaq istəyir. Ancaq Gürcüstanın səylərinə rəğmən, Ermənistan bu sənədə imza atmır. Artıq 5 ildir Ermənistan Gürcüstana hücum etməməklə bağlı üzərinə öhdəlik götürmür və bununla əlaqədar müqavilə imzalamır.

**"Artıq 5 ildir Ermənistan Gürcüstana hücum etməməklə bağlı üzərinə öhdəlik götürmür"**

Problem əsasən bununla bağlıdır. Bununla belə, zaman-zaman Cavaxetiya ermənilərinin Ermənistan tərəfindən qızışdırılır. Ona görə də reallıqda Gürcüstan Ermənistanın qabağına şərt qoyub. Əvvəlcə sülh və təhlükəsizlik məsələlərinin həllini tapaq, sonra isə iqtisadi məsələlərlə bağlı ikitərəfli sazişlər imzalansın. Bununla bağlı Ermənistan güzəştə getmədiyi üçün, tərəflər arasında əlaqələr fikir mübadiləsindən o tərəfə keçmir".

*Vidadi ORDAHALLI*

# Məmurlarımızın kabinet geyimləri - məmur etikası və sanbalının əsas göstəricilərindən biri kimi...

**"O adamın iş otağındakı hərəkətləri, onun əynindəki geyim, cinsdə, ev paltarında adam iş otağında ola bilər?". Bunu Prezident İlham Əliyev Nahid Bağırovu İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, Mirhəsən Seyidovu isə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən deyib.**

*"O zaman geyimlə bağlı bütün məmurlar öz yerini biləcək"*

Dövlət başçısı əlavə edib ki, kabinetdə müxtəlif adamlardan rüşvətin alınması biabırçı mənzərədir: "Bir də ki, o adamın iş otağındakı hərəkətləri, onun əynindəki geyim, cinsdə, ev paltarında adam iş otağında ola bilər? Rəhbər iş otağında bu geyimdə hansı nümunə göstərir bütün məmurlara? Ona görə bu biabırçı kadrlar, əlbəttə, onu göstərir ki, bu insanın və buna oxşar insanların mənəvi deqradasiyası nə dərəcədədir. İndi operativ məlumat toplanılıb və toplanılır. Əlbəttə ki, mən istintaqa qarışmaq istəmirəm, istintaq hər şeyi özü göstərəcək. Son sözü məhkəmə deyəcək".

Ümumilikdə, iş zamanı məmurun iş geyimi önəmlidir. Təbii ki, şənbə və bazar günləri məmurlar idman formasında ola bilərlər. Ancaq bu, iş yerində olmamalıdır. İş zamanı məmurun xüsusi geyimi olmalıdır və bu, ciddi libasdan ibarət olmalıdır. Ancaq təəssüflər olsun ki, bəzi icra başçıları işə idman geyimi ilə gedirlər. Aşırı dərəcədə özlərinə arxayın olmaları səbəbindən çox sərbəst geyimdə, hətta idman geyimində kabinetdə oturmaqdan çəkinmirlər. Bu da, istər-istəməz, məmurlar barəsində mənfi rəy formalaşdırır. Ciddi məmur obrazına xələl gətirir. Əslində isə iş başında olan istənilən məmur ciddi geyimdə olmalı, üzünü vaxtında qırxmalı və bütün bunlarla çevrəsində sağlam məmur obrazı formalaşdırmalıdır. Əsl məmura xas olan xüsusiyyətləri ilə digərlərinə nümunə olmalıdır.

Siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, bəzi icra başçıları Prezidentin səsləndirdiyi iradlardan ciddi nəticə çıxarmalıdırlar: "Məsələ ondadır ki, kimlərsə uzun müddət eyni vəzifədə qaldıqda müəyyən neqativ hallara yol verirlər.

***Ramil Hüseynov:*** *"Elə bir ictimai nəzarət mexanizmi yaradılmalıdır ki, məmur hər an buna görə özündə məsuliyyət hiss etsin"*



İlk baxışdan onlarda elə bir təəssürat yaranır ki, daimi olaraq vəzifədə qalacaqlar. İlk vaxtlar ciddi geyimdə işə gəlirlər və zaman keçdikcə, bu cür alışqanlıqlar dəyişir. Rayonda özlərini ağa kimi aparırlar. Məmura yaraşmayan geyim forması ilə işə çıxırlar. Bu da, istər-istəməz, xoşagəlməz mənzərənin yaranmasına səbəb olur. Hesab edirəm ki, belə hallara yol verən icra başçıları ilə bağlı ciddi ölçü götürülməlidir. Elə bir ictimai nəzarət mexanizmi yaradılmalıdır ki, məmur hər an buna görə özündə məsuliyyət hiss etsin. Qanunvericilikdə bu məsələlər aydın şəkildə öz əksini tapmalıdır. O zaman geyimlə bağlı bütün məmurlar öz yerini biləcək".

***Vidadi ORDAHALLI***

# Yəhudilərə qarşı Hitlerlə əlbirlikdə suçlanan Papa XII Piyin arxivlərinin açılmasının pərdəarxası...

**Roma Papası İkinci Dünya Müharibəsinə dair məxfi arxiv materiallarını açmağa qərar verib. Artıq tarixçilər 1939-58-ci illərdə Papa olmuş XII Piyin arxiv sənədləri ilə tanış ola bilərlər. XII Piyin müharibə zamanı fəaliyyəti barədə birmənalı fikir yoxdur. Bu barədə qərarı Roma Papası Fransisk şəxsən qəbul edib. Papa bildirib ki, XII Piyin İkinci Dünya Müharibəsi zamanı fəaliyyət dövrü "20-ci əsrin ən kədərli və qaranlıq anlarındandır".**



Bununla Fransisk XII Piyin ünvanına tənqidlər səsləndirən tarixçilərin çoxsaylı müzakirəsinə işarə edib.

Vatikan arxivləri açmaqla nəyə nail olmaq istəyir və bunun nə kimi təsirləri ola bilər?

İlahiyyatçı Cəbrayıl Hüseynoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Vatikan 2-ci Dünya Müharibəsi dövrünün arxivlərini martın 9-da açmağa qərar verib: "İddialara görə, həmin vaxt Katolik Kilsəsinin başçısı olmuş Papa XII Piyin Holokost dəhşətlərinə göz yumduğuna dair şübhələr olduğundan, bu arxivlər indiyədək gizli saxlanırdı.

Bəzən "Hitler Papası" da adlandırılan XII Piy 1939-1958-ci illərdə Müqəddəs Taxtda olub. Bəzi tarixçilər iddia edirlər ki, Papa nasistlər tərəfindən yəhudilərə qarşı qırğınlar törədildiyi barədə bilirdi, amma buna qarşı heç nə etməyib. Vatikan isə, əksinə, XII Piyin yəhudiləri xilas etmək üçün fəal iş apardığını israr edir.

***Cəbrayıl Hüseynoğlu:*** *"XII Piyin hakimiyyəti, ümumiyyətlə, olduqca ağrılı və qəliz bir dövrə təsadüf edib"*

Arxiv sənədləri işlərin həqiqi vəziyyətini aydınlaşdırmağa kömək edəcək. Onları araşdırmaq üçün çoxlu sayda elm adamı bu işə cəlb olunacaq. Bildirilir ki, İkinci Dünya Müharibəsi dövrünü əhatə edən sənədlər milyonlarla səhifəyə malikdir. Papa XII Piy Katolik Kilsəsinin son tarixindəki ən mübahisəli şəxslərdən biri kimi tanınır. Elm adamlarının onun yəhudilərin kütləvi qırğınları ilə bağlı susqunluğa yol verdiyi barədə fərziyyələri doğrulsa, bu, kilsənin nüfuzunu daha da aşağı sala bilər. Ancaq hazırkı Roma Papası Fransisk kilsənin tarix ilə üz-üzə qalmaqdan qorxmadığını deyərək arxiv sənədlərinin açılmasına qərar verdi".

Onun sözlərinə görə, XII Piyin hakimiyyəti, ümumiyyətlə, olduqca ağrılı və qəliz bir dövrə təsadüf edib. "Qalmaqalda adı hallanan Papanı müdafiə edənlər də az deyil. Onların qənaətincə, Piy 1942-ci ildə etdiyi radiomüraciətlərdən birində 100 minlərlə insanın milli kimliyinə görə kütləvi qətlə yetirildiyini deyib və həmin əməlləri pisləyib. XII Piyi müdafiə edənlər həm də bu qənaətə gəlirlər ki, Papa keçmiş diplomat olduğu üçün, bəzi manevrlər edib. Bunun da kökündə neytraliteti saxlayıb, kilsəni xilas etmək niyyəti durub. Hətta iddia olunur ki, məhz həmin Papanın göstərişi əsasında kilsə 4 min yəhudini öz binalarında faşistlərdən gizlədib, qorumağa nail olub. Müdafiəçilərin fikrincə, XII Piy həmin vaxtın tələbinə görə bundan artıq nəsə edə bilməzdi.

İstənilən halda, Katolik Kilsə ilə bağlı qaranlıq sayılan bu tarixə ən doğru qiyməti tarixi faktlar verəcək. Kilsə arxivlərin açılmasını da buna görə edib ki, Piy barədə fərziyyələrlə deyil, konkret faktlar əsasında danışsınlar.

Düşünürəm ki, bununla həm kilsə ittihamlardan uzaq olacaq, həm də tarixin ən maraqlı səhifələrindən birinə aydınlıq gətiriləcək. Katolik Kilsə bu qərarı təsadüfən verməyib. Çox güman ki, arxivlərin açılmasının kilsənin xeyrinə olacağını bildikləri üçün belə qərarı veriblər".

***Məhəmmədəli QƏRİBLİ***

# Prezidentin əsaslı irad tutduğu "şikəst xəritə" Mədəniyyət Nazirliyindən Tovuza necə göndərilib...

***İntiqam Hümbətov** "Hazırda Mədəniyyət Nazirliyi xəritədə yol verilmiş nöqsanların aradan qaldırılması üçün həmin xəritələrin hazırlanmasını həyata keçirən müvafiq orqanlara müraciətlər edir"*

**Hər bir dövlətin qədim və müasir ərazisini ifadə edən xəritələr, atlaslardır. Bu xəritə və atlaslarda ölkənin bütün ərazisi, şəhər, qəsəbə, bütövlükdə, yaşayış məntəqələrinin adları daha dəqiq qeyd edilməlidir. Lakin təəssüf ki, bəzən biz bunu görə bilmirik. Bir sıra hallarda qarşımıza Azərbaycan ərazilərinin təhrif edilmiş xəritələri çıxır.**

Çox zaman yerli ekspertlər bu xəritələrin xarici ölkələrdə çap edildiyini iddia edirlər. Əslində isə bizim ölkəmizə aid olan xəritə aidiyyəti qurumlarımız tərəfindən çap edilir.

Uzağa getməyək, elə ölkəmizin özündə də bu işlə məşğul olan qurumlar, institutlar, əlaqədar komitə və nazirliklər, görünür, bu işin öhdəsindən gələ bilmir, ya da belə önəmli, ciddi məsələyə barmaqarası baxırlar. Ölkəmizdə Milli Elmlər Akademiyasının aidiyyəti institutlarının, eləcə də dövlət qurumlarının iştirakı ilə hazırlanan xəritə və atlaslarda ərazilərimizin təhrif edilməsinə dair faktlar görürük.

Məlum olduğu kimi, martın 4-də Tovuzda Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin muzeydə gördüyü təhrif edilmiş Azərbaycan xəritəsinə ciddi irad bildirməsi diqqətimizi bir daha bu məsələyə yönəltdi. Onu da vurğulayaq ki, sözügedən xəritənin hansı dövrləri əhatə etməsi də göstərilməyib, bundan əlavə, şəhər adlarının bəziləri kiril, bəziləri isə latın əlifbası ilə verilib. Ümumiyyətlə, istənilən xəritə çap edilərkən orada hansı dövrü əhatə etdiyi mütləq qeyd olunmalıdır. Ənənəvi xəritəçilikdə bu həmişə gözlənilib.

Açılışdan sonra muzeyin eksponatları ilə tanış olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev burada nümayiş olunan tarixi xəritələrlə bağlı iradlarını bildirib: "Bu, neçənci əsrin xəritəsidir? Gərək yazılsın. Hər bir xəritədə yazılmalıdır neçənci əsrə aiddir, çünki dövlətlər dəyişib, sərhədlər dəyişib. Bu xəritəni siz haradan götürmüsünüz?"

Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov: "Mədəniyyət Nazirliyindən".

Prezident İlham Əliyev: "Mədəniyyət Nazirliyindən? Qədim adlar, məsələn, Sisian yazılıbdır. O vaxt Sisian adı yox idi, sonra kimsə bunu uydurub. Xəritədə indiki Azərbaycan ərazisində Mingəçevirdən başqa heç bir tarixi ad yazılmayıb. Halbuki, Bərdə, Qəbələ, Naxçıvan - bütün bunlar qədim şəhərlərimiz olub. Ona görə soruşuram, bu, hansı əsrə aiddir? Çünki bu xəritədən heç nə başa düşmək mümkün deyil. Qafqaz Albaniyası dövləti də burada göstərilmir. Amma baxın, bu Urartu hansı hərflərlə yazılıb. Ona görə buna baxmaq lazımdır. Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayın, xəritələr həm dəqiq olmalıdır, həm də bunun tarixi göstərilməlidir.

Bu xəritə də bilinmir hansı tarixə aiddir. İndiki Azərbaycan ərazisində heç bir şəhərin adı yoxdur. Var buna cavab? Xəritə asmısınız, hesab edirsiniz ki, bununla iş düzəlir? Bu xəritə bizim tariximizdir. Uşaqlar gəlib bu xəritədən bu tarix haqqında nə başa düşəcəklər? Heç bilinmir nədir bu. Özü də haradan götürmüsünüz Allah bilir. Buna belə yanaşmaq olmaz. Eksponatları doldurursunuz, hesab edirsiniz ki, bununla iş bitir? Özü də uşaq otağıdır. Uşaq gəlib soruşacaq ki, bu nədir, mənim məmləkətim nədir? Haradadır mənim qədim şəhərlərim? Onun əvəzinə orada Urartu görürük".

Prezidentin ciddi iradına səbəb olan sözügedən xəritələr Tovuz Tarix-Diyarşünaslıq Muzeyinə necə gedib çıxıb? Mədəniyyət Nazirliyi tərəfindən muzeyə təqdim edilən xəritə əvvəlcədən mütəxəssislər tərəfindən yoxlanılmayıbmı?

Mədəniyyət Nazirliyinin İnformasiya və İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri İntiqam Hümbətov "Bakı-Xəbər"ə bildirdi ki, nazirlik xəritə çap etmir, sözügedən xəritə dövlət tərəfindən təsdiqlənən xəritədir. "Qeyd edim ki, ölkə başçısı İlham Əliyev bölgələrə səfəri zamanı bir sıra obyektlərin, o cümlədən də mədəniyyət ocaqlarının açılışında iştirak edib. Ölkə başçısı, həmçinin, Tovuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin də açılışını edib. Cənab Prezident eksponatlarla tanışlığı zamanı oradakı xəritələrlə bağlı haqlı iradlarını, narazılıqlarını bildirib. Mədəniyyət Nazirliyi yalnız dövlət tərəfindən təsdiqlənən xəritələrdən istifadə edir. Hazırda Mədəniyyət Nazirliyi xəritədə yol verilmiş nöqsanların aradan qaldırılması üçün həmin xəritələrin hazırlanmasını həyata keçirən müvafiq orqanlara müraciətlər edir. Deyim ki, həmin xəritələr 2014-cü ildə çap olunmuş "Azərbaycan Respublikasının Milli Atlası"dan götürülüb. Mədəniyyət Nazirliyi xəritə çap etmir. Bu xəritə də 2014-cü ilə çap olunan atlasdan götürülüb və o atlas da tarixçilərin, mütəxəssislərin, aidiyyəti qurumlarının rəhbərlərinin təmsil olunduğu redaksiya heyəti tərəfindən hazırlanıb. Hazırda nazirlik bu məsələ ilə bağlı müvafiq dövlət qurumları ilə araşdırmalar aparır" - deyə İ.Hümbətov qeyd etdi.

İ.Hümbətov bildirdi ki, "Azərbaycan Respublikasının Milli Atlası"nın nəşri Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2011-ci il tarixli, 1436 nömrəli Sərəncamı ilə qərara alınıb və 2014-cü ildə nəşr olunub.

Qeyd edək ki, ölkə başçısının müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasının Milli Atlası"nın redaksiya heyəti Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2011-ci il tarixli, 1436 nömrəli Sərəncamı ilə aşağıdakı tərkibdə təsdiq edilib:

Redaksiya heyətinin sədri - Azərbaycan Respublikasının sabiq Baş naziri Artur Rasi-zadə, Redaksiya heyəti sədrinin müavini - AMEA-nın həqiqi üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, məsul katib mərhum Mahmud Kərimov, AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 fevral 2015-ci il tarixli Sərəncamı ilə ləğv edilmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədov, Redaksiya heyətinin üzvləri isə Xarici İşlər naziri Elmar Məmmədyarov, sabiq İqtisadi inkişaf naziri, hazırda Baş nazirin müavi Şahin Mustafayev, Sənaye və Energetika naziri mərhum Natiq Əliyev, sabiq Nəqliyyat naziri Ziya Məmmədov, sabiq Kənd Təsərrüfatı naziri İsmət Abasov, sabiq Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov, Mədəniyyət naziri Əbülfəs Qarayev, sabiq Təhsil naziri Misir Mərdanov, Səhiyyə naziri Oqtay Şiraliyev, sabiq Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov, İdman və Gənclər naziri Azad Rəhimov, Dövlət Statistika Komitəsinin sabiq sədri Arif Vəliyev, AMEA-nın həqiqi üzvü, AMEA-nın vitse-prezidenti (sabiq), AMEA-nın Geologiya İnstitutunun direktoru Akif Əlizadə, AMEA-nın həqiqi üzvü, Xoşbəxt Yusifzadə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, AMEA-nın həqiqi üzvü, AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi (mərhum), AMEA-nın Dilçilik İnstitutunun mərhum direktoru Ağamusa Axundov, AMEA-nın həqiqi üzvü, AMEA-nın Biologiya Elmləri Bölməsinin akademik-katibi, Azərbaycan Tibb Universitetinin sabiq rektoru Əhliman Əmiraslanov, AMEA-nın həqiqi üzvü, AMEA-nın Coğrafiya İnstitutunun sabiq direktoru mərhum Budaq Budaqov, AMEA-nın həqiqi üzvü, Bakı Dövlət Universitetinin sabiq rektoru Abel Məhərrəmov, AMEA-nın həqiqi üzvü, Azərbaycan İqtisadçılar İttifaqının sədri Ziyad Səmədzadə, AMEA-nın müxbir üzvü, AMEA-nın Tarix İnstitutunun direktoru, Bakı Dövlət Universitetinin kafedra müdiri Yaqub Mahmudov, AMEA-nın müxbir üzvü, AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru Məhərrəm Babayev təmsil olunublar.

Gördüyümüz kimi, həmin şəxslərin də bir qismi həyatda yoxdur, bir qismi isə hazırda vəzifəsini icra etmir, bəziləri isə yenə də vəzifə başındadır.

Ölkə başçısının böyük etimad göstərərək "Azərbaycan Respublikasının Milli Atlası"nın nəşri ilə bağlı redaksiya heyətinə daxil etdiyi şəxslərin, vəzifə sahiblərinin hansı bu nöqsanlı xəritənin ərsəyə gəlməsində, meydana çıxmasında rol oynayıb, bu məsələdə daha çox kimlər məsuliyyət daşıyır? Bu da ayrıca bir araşdırma mövzusudur…

***İradə SARIYEVA***



*"Həmin xəritələr 2014-cü ildə çap olunmuş "Azərbaycan Respublikasının Milli Atlası"ndan götürülüb"*

# Soçi razılaşması 2 il sürdü, Putinlə Ərdoğanın Moskva razılaşması nə qədər davam edəcək...

***Yeganə Hacıyeva:** "Yaxın Şərqdə dayanıqlı sülh və stabilliyin əsası Rusiya-Türkiyə münasibətlərinin yaxınlaşmasından asılıdır"*




**Rusiya Prezidenti Vladimir Putin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında keçirilən təkbətək görüşdən sonra məlum olub ki, tərəflər ilkin razılaşmanı əldə ediblər. 3 saat davam edən təkbətək görüşdən sonra tərəflər mətbuatın qarşısına çıxıblar.**

Əvvəlcə Putin açıqlama verərək, İdlib məsələsində razılığa gəldiklərini açıqlayıb. O, tərəflər arasındakı fikir ayrılığının danışıqlarla aradan qaldırıldığını bildirib.

Vladimir Putin deyib ki, Rusiya və Türkiyə İdlibdəki gərginlik problemi ilə bağlı qəbul edilə biləcək həll yolları tapıb: "Görüşdən sonra ortaq şəkildə sənəd hazırladıq. Rusiya və Türkiyə İdlibdə terrorizmlə mübarizənin zəifləndilməməsindən əmindir. Suriyadakı böhranın həlli ilə bağlı ümumi bəyannamə hazırlanması ilə bağlı razılığa gəldik.

Daimi olaraq Suriya rejimi və mülki əhali atəş altındadır. 1 martda da hücum oldu və bu, ilin əvvəlindən 15-ci hücum idi. Türk əsgərləri arasında da itkilər var və Prezident Ərdoğana və Türkiyəyə başsağlığımızı çatdırdıq. Kritik məqamlarda hər zaman ümumi məqamları tapa, çözə bilirdik. Bu gün də elə oldu. Hazırda Astana çərçivəsində danışıqlarımız davam edir. Müzakirələrimizin nəticəsində ortaq bir sənəd hazırladıq. XİN rəhbərləri onu bəyan edəcəklər. Ərdoğanla 6 saatlıq müzakirənin nəticəsi olaraq bu sənədi hazırladıq. Bu, İdlibdə qarşıdurmaların başa çatmasına və mülki əhalinin əzablarına son verilməsinə, bütün tərəflər arasında dialoq qurulmasına kömək edəcək".

Sonra çıxış edən Ərdoğan İdlibdə baş verənlərə görə Əsəd rejimini ittiham edib. Türkiyənin baş verənlərə seyrçi qalmadığını bildirib. Ərdoğan Rusiya ilə işbirliyində problemi həll edəcəklərinə inandığını, bunun üçün hər iki tərəfdə siyasi iradənin olduğunu bildirib. Ancaq Ərdoğan Əsəd rejiminin bütün hücumlarına Türkiyənin cavab vermək haqqını saxladığını bəyan edib:

"Suriyada, o cümlədən, İdlibdəki prosesləri danışdıq. Fikir ayrılıqları olan məsələləri detallı şəkildə müzakirə etdik. Bu gecədən etibarən atəşkəs qüvvəyə minir. Atəşkəsin daimi olması üçün lazımi işlər sürətlə davam etdiriləcək. Türkiyə təhdidlər qarşısında əli-qolu bağlı qalmaz. İdlibdəki razılaşmanın pozulmasına səbəb Əsəd rejiminin hücumlarıdır. Rejimin hər hücumuna qarşılıq veriləcək. Müşahidə məntəqələrimiz bölgədəki vəziyyətə və atəşkəsə nəzarətə məsuliyyət daşıyırlar. Bu gecə 00:01-dən etibarən atəşkəs qüvvəyə minəcək. Ehtiyac içində olan suriyalılara qeyd-şərtsiz yardım edilməsi üçün çalışacağıq. Suriya böhranına həll yolu tapana kimi Türkiyə regiondakı varlığını davam etdirəcək".

Qeyd edək ki, bu, tərəflərin Suriya ilə bağlı ortaq məxrəc əldə etdiyi ilk görüş deyil. Təxminən iki il bundan əvvəl Türkiyə ilə Rusiya Soçi şəhərində Suriya məsələsində ortaq məxrəcə gələ bilmişdi. Ancaq, göründüyü kimi, həmin razılaşmanın ömrü uzun olmadı. Görəsən Moskvada əldə olunan razılaşmanın ömrü nə qədər olacaq?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Vladimir Putinlə Rəcəb Tayyib Ərdoğan arasında altı saatdan çox davam edən danışıqlarda İdlibdə təhlükəsizlik zonasında vəziyyətin gərginləşməsi, bunu yaradan səbəblər və bu səbəblərin aradan qaldırılmasına hesablanmış addımların atılması nəzərdə tutulub: "Türkiyə və Rusiya Suriyada Astana formatı çərçivəsində əməkdaşlığı davam etdirməyi qərara aldılar və Suriyada ortaq maraqlara qarşı fəaliyyət göstərən terror qruplarına qarşı mübarizənin zəifləməsinə imkan verilməməsi barədə razılığa gəldilər.

Rusiya və Türkiyə İdlibdə gərginliyin aradan qaldırılması üzrə birgə razılaşma əldə ediblər. Öncəliklə bu razılaşmanı gərginliyin azaldılması üçün müvəqqəti profilaktik razılaşdırma adlandıra bilərik və bu razılaşma geniş Soçi və Astana formatından fərqli tərəfi onun ümumi prosesə deyil, İdlibdə gərginliyin azaldılmasına yönəlik addım kimi hesablanmasıdır. Razılaşmaya görə, 6 mart gecə yarısından başlayaraq mövcud təmas xətti boyunca bütün hərbi əməliyyatlar dayandırılır; Rusiya və Türkiyə Suriyada M4 trasından şimala və cənuba doğru altı kilometr genişliyində təhlükəsizlik dəhlizi yaradırlar və martın 15-dən Rusiya və Türkiyə M4 trası boyunca birgə patrul xidmətlərinə başlayacaqlar.

Oxucularımız üçün məlum olsun deyə qeyd edim ki, Suriyada ölkəni qərbdən şərqə və şimaldan cənuba keçən üç əsas beynəlxalq marşrut - M1, M4 və M5 daxil olmaqla yaxşı inkişaf etmiş nəqliyyat şəbəkəsi var. Bu magistrallar Türkiyə, Livan, Avropa, Asiya, Rusiya və Fars körfəzi ölkələrindən Suriyaya və əksinə malların daxil olduğu ticarət-nəqliyyat şəbəkəsidir.

Bu ilin yayından M4 beynəlxalq magistralın bir hissəsinə - İraqla sərhəddə yerləşən Əl-Yarubiyyə keçid məntəqəsindən Suriya dövlətinin nəzarətində olan Latakiyaya qədər olan hissəsi beynəlxalq koalisiyanın dəstəklədiyi Suriya demokratik qüvvələrinin nəzarəti altında idi. Magistralın digər hissəsi isə Türkiyənin tamamilə nəzarətində olan Hələb əyalətindəki Fərat Qalxanı və İdlib əyalətindəki "Hayat Tahrir al-Sham" qrupunun nəzarətində olan ərazidən keçir.

Əldə olunan razılaşmalar nə qədər yerinə yetiriləcək sualına gəlsək, hər iki dövlətin, istər Rusiya, istərsə də Türkiyə Suriyada baş verənlərlə bağlı hər nə qədər fərqli fikirləri və mövqeləri mövcud olsa da, kritik məqamlarda hər iki dövlət ortaq dönüş nöqtəsi əldə etməyə məcburdur. Buna onların Suriyadakı proseslərdəki iştirakı, mövqeyi, məsuliyyəti və öhdəliyi məcbur edir. Hər iki dövlətin bu məsələdə məsuliyyəti və öhdəliyi mövcuddur.

Mövcud reallıqda Suriya və ümumilikdə, Yaxın Şərqdə dayanıqlı sülh və stabilliyin əsası Rusiya-Türkiyə münasibətlərinin yaxınlaşmasından asılıdır. Bunun da yolu proseslərdə kritik gərginliyin yaranacağı halda tərəflər arasında əldə olunacaq razılaşmalardan keçir".

***Məhəmmədəli QƏRİBLİ***

**Rusiya və Türkiyə arasında Suriya ilə bağlı Moskvada əldə olunan razılıq bu iki ölkənin Yaxın Şərq əməkdaşlığının davam edəcəyini göstərir. Xatırladaq ki, Moskvada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin arasında görüşdən sonra tərəflər atəşkəs və əməkdaşlığın davam etdirilməsinə dair razılıq əldə edib.**

# Ankara və Moskvanın İdlib anlaşması İrəvanı yasa boğdu

Dünya ölkələrinin bu razılığa münasibəti fərqlidir. Məsələn, Qərb ölkələri bu razılıqdan o qədər də məmnun deyil.

Cənubi Qafqaz ölkələrinin də məsələyə münasibəti fərqlidir. Qonşu Gürcüstan burada daha çox neytrallıq nümayiş etdirsə də, Ermənistan ciddi şəkildə narahatlıq keçirir. Məsələn, erməni ekspert Ruben Baqratyan bildirir ki, Türkiyə və Rusiyanın İdlib anlaşması Ermənistan üçün müsbət heç nə vəd etmir:"Türkiyə - Rusiya yaxınlaşması Ermənistanın mövqelərinin daha da zəifləməsi anlamına gəlir. Çünki Ankaranın Ermənistana münasibəti bəllidir. İdlibdə son hadisələrdən sonra Moskva və Ankaranın əlaqələrindəki çatlar Ərdoğanın Rusiya səfəri ilə düzəldi. Rusiya üçün Türkiyə daha vacib amildir və buna görə, Türkiyənin istəyinə uyğun olaraq, Moskva Ermənistanı qurban verə bilər".

Ümumiyyətlə, Ankara ilə Moskva arasında yaxınlaşmanın geosiyasi nəticələrinin olması qaçılmaz sayılır. Bu prosesin bütövlükdə qlobal siyasətə, o cümlədən Cənubi Qafqazda da. təsir edəcəyi istisna edilmir. İndiki durumda İrəvan Rusiya - Türkiyə münasibətlərinin normallaşmasını özünə təhlükə kimi qiymətləndirsə də, real heç bir addım ata bilmir. Erməni analitiklər iddia edr ki, Türkiyə ilə yenidən yaxınlaşma fonunda Kreml Ermənistanın təhlükəsizliyinin müdafiəsindən geri çəkilə bilər. Onlar hesab edir ki, bu, daha çox, geosiyasi əhəmiyyətli Türkiyə və Azərbaycan faktoru ilə bağlıdır. Erməni politoloq Yervand Bozoyan qeyd edir ki, Türkiyə və Suriya orduları arasında toqquşma Türkiyə-Rusiya münasibətlərində ciddi gərginlik yarada bilərdi.



Amma Ərdoğan Moskvaya səfər etməklə buna son qoydu: "Böyük dövlətlər arasında güclü gərginlik olanda onlar Liviya və Suriyada olduğu kimi bu gərginliyi daha kiçik tərəfdaşları vasitəsilə meydanlara ötürürlər. Rusiya-Türkiyə gərginliyi güclənərdisə, prosesin Qarabağa ötürüləcəyi ilə bağlı böyük təhlükə mövcud olardı. Amma o zaman Rusiya yenə bizi müdafiə edə bilərdi. Lakin bu dəfə biz Rusiyanın müdafiəsindən məhrumuq. Çünki Kreml Ankara ilə əlaqələrini yenidən düzəldir. Belə olan halda Ankaranın Qarabağ məsələsini aktivləşdirəcəyini söyləmək olar. Regiondakı hazırkı situasiya sayəsində Ermənistan rəhbərliyi gərək bütün hərbi resurslarını konsolidasiya edib, müharibəni gözləsin. Lakin biz bu dəfə güclü Azərbaycan, onun tərəfdaşı Türkiyə qarşısında təkik". Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Artak Davtyan da eyni narahatlığı bölüşür:"Ermənistan Yaxın Şərqdəki vəziyyətin inkişafını diqqətlə izləyir və başqa ölkələrdən olan həmkarları ilə daim əlaqədədir". O qeyd edib ki, Suriyada baş verən hadisələr Cənubi Qafqaza birbaşa təsir edə bilər:

"Bu bizim üçün çox vacibdir. Biz bütün hadisələri diqqətlə izləyirik. Bundan başqa tərəfdaşlarımızla, xüsusilə də Rusiya ilə, zərurət yarandığı təqdirdə isə digər ölkələrlə daim əlaqədəyik. Məlumatı birinci əldən almaq üçün əməkdaşlıq edirik". Erməni tərəfində bu fikir hakimdir ki, Türkiyə və Rusiya formatında İrəvana təzyiqlər artır. Azərbaycan isə bu münasibətdən istifadə edərək Ermənistanı daha ağır duruma salır.

Digər tərəfdən məsələni şərtləndirən məqamlardan biri də Moskvanın özünün Ermənistanı cəzalandırmaq niyyətidir. Çünki Kreml İrəvanın onun orbitindən çıxması ilə barışmaq istəmir. Rusiyanın "Kommersant" nəşri də məsələyə bu prizmadan yanaşır: "Ermənistan, dəfələrlə verilən mesajlara rəğmən, Qərbə can atır və Rusiyanın onun üçün etdiklərini unudur. Təbii ki, Kreml bunu qəbul edə bilməz. Nikol Paşinyan iqtidarı, buna rəğmən, Rusiyadan uzaqlaşmağa çalışır. Eləcə də Rusiyaya yaxın şəxsləri neytrallaşdırmağa can atır. Məsələn, Ermənistanın ikinci prezidenti Robert Köçəryanın həbsdə saxlanması bunun təsdiqidir. Rusiya prezidenti Vladimir Putinin dostluğunu gizlətmədiyi Köçəryana qarşı olan təqib Ermənistan-Rusiya münasibətlərində əsas ağırlaşdırıcı amillərdən biridir. Köçəryandan başqa KTMT-nin keçmiş baş katibi Yuri Xaçaturov, Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan, həmçinin Prezident Administrasiyasının keçmiş rəhbəri Armen Qevorgyanın da ittiham edildiyi Konstitusiya quruluşunun pozulmasına dair cinayət işinə Şenqavit Birinci İnstansiya Məhkəməsində baxılır. Köçəryana qarşı məhkəmə işi təkcə Ermənistanın daxili məsələsi deyil. Əvvəldən Moskva siyasətçinin ətrafındakı hadisələri yaxından izləyir. Proses 2018-ci ildə başlayanda Rusiyanın xarici işlər naziri Sergey Lavrov bu cür hərəkətlərin "yeni Ermənistan hakimiyyətinin addımları sələflərinə siyasi təqib göstərmək niyyətində olmadıqları ilə bağlı açıqlamalarına ziddir" deyə açıqlama verib. Maraqlıdır ki, Köçəryana qarşı cinayət işi açıldıqdan sonra Rusiya prezidenti ona zəng vurub və ad günü münasibətilə təbrik edib.

**Ötən ilin oktyabrında Avrasiya İqtisadi Birliyinin Ali Şurası İrəvanda toplaşarkən Rusiya lideri Ermənistanın keçmiş prezidentinin həyat yoldaşı Bella Köçəryan və oğlu Levon Köçəryanla görüşmüşdü. Görüş Rusiyanın İrəvandakı səfirliyində baş tutmuş və hər kəs bunu Rusiya prezidentinin dəstəyi kimi qiymətləndirmişdi. Rusiya tərəfi Ermənistanın ikinci prezidentinə qarşı başlanan prosesi siyasi təqib hesab edir".**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# İntensiv atəşkəs pozuntularının sirri - Paşinyanın Qarabağ siyasətində davam etdirdiyi uğursuzluqlar...

**Erməni tərəfinin cəbhə təxribatlarının davam etməsi bu ölkənin Dağlıq Qarabağ münaqişəsini dinc müstəvidə həll etməkdə hələ də maraqlı olmadığını üzə çıxarır. Belə görünür ki, düşmənin addımları Qarabağ məsələsinin hərbi həllindən başqa seçim yolu qoymayacaq.**

Məsələnin mahiyyətindən danışmazdan öncə qeyd edək ki, düşmən Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində yenidən atəşkəsi pozub. Düşmən qüvvələrin snayperdən açdığı atəş nəticəsində Qazax rayonu Quşçu Ayrım kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsindəki sərhədçi əsgərimiz Orxan Paşazadə qətlə yetirilib. Rəsmi Bakı bəyan edir ki, baş verən bu qanlı insident məqsədyönlü təxribat xarakteri daşıyır və bu cinayətə görə tam məsuliyyət işğalçı ölkə Ermənistanın üzərindədir. Azərbaycan XİN bu xüsusda bildirir: "Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyan hərbi qulluqçumuzun qətlə yetirilməsi işğalçı Ermənistanın münaqişənin sülh yolu ilə həlli çağırışlarının yalan və riyakarlıqdan başqa bir şey olmadığını açıq şəkildə nümayiş etdirir. Məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu kimi cinayətkar və dağıdıcı fəaliyyəti Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə və beləliklə də ATƏT-in Minsk Qrupunun həmsədrləri simasında beynəlxalq ictimaiyyətin səylərinə birbaşa maneə törədir". Xatırladaq ki, Azərbaycan və Ermənistan liderlərinin Münhendə son görüşü zamanı da düşmən Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində eyni addım ataraq daha bir hərbçimizi şəhid etmişdi. Proseslər göstərir ki, Ermənistan bu istiqamətdə təxribatlara son vermək niyyətində deyil. Elə bunun nəticəsidir ki, mart ayının 6-da da səhər saatlarından başlamaqla Qazax rayonunun Cəfərli kəndi istiqamətindəki sərhəd döyüş məntəqələrimiz Ermənistanın İcevan rayonunun Sevkar və Sarıquyuq kəndləri yaxınlığında yerləşən Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən iriçaplı silahlardan və snayper tüfənglərindən intensiv atəşə tutulub. Düşmən təxribatının qarşısı alınıb, sərhəd döyüş məntəqələrimizə qarşı atəşin açıldığı Ermənistan Silahlı Qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub. Maraq doğuran məqam düşmənin nədən cəbhə təxribatlarını davam etdirməsi və Qarabağ məsələsinin həllini hərbi müstəviyə yönləndirməsidir.

Ekspertlər hesab edir ki, əvvəla, Dövlət Sərhəd Xidmətinin qüvvələrinin Babakər dağında dörd yüksəklikdə möhkəmlənməsi ilə Ermənistan hələ də barışa bilmir. Bu yüksəkliklər Ermənistan ordusunun həmin istiqamətdəki mövqelərinə və onlara aparan yollara, Gürcüstan-Ermənistan qaz kəmərinin keçdiyi əraziyə nəzarət etmək imkanı verir. Bunlar Ermənistanda indinin özündə də böyük məğlubiyyət kimi qəbul olunur. Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri, deputat Zahid Oruc məsələyə həm də başqa bir prizmadan yanaşır. Onun sözlərinə görə, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsi, müasir müdafiə tələblərinə cavab verməsi prosesi bütün istiqamətlər üzrə gedir və bu da Ermənistanı narahat edir. O bildirir ki, Azərbaycanın, bütün istiqamətlərdə olduğu kimi, Qazax-Gədəbəy istiqamətində də Silahlı Qüvvələri gücləndirilib, üstəlik, bu istiqamətdə sərhəd qoşunları da ön cəbhəyə yerləşdirilib. Zahid Oruc müasir müdafiə sisteminin tam təmin edilməsi üçün lazım olan bütün hərbi qurğu və vasitələrin Silahlı Qüvvələrin sərəncamında olduğunu vurğulayır: "Həm hərbi balans Azərbaycanın xeyrinə dəyişib, həm də Azərbaycan tərəfi sübut edib ki, müharibə və münaqişə təhlükəsi təkcə Qarabağ separatçılarından qaynaqlanmır, bunun mənbəyi həm də dövlət olaraq Ermənistandır. Bu fonda Azərbaycan ordusunun belə gücləndirilməsi Ermənistanı ciddi narahat edir". Əsgər ölümlərinə gəlincə, Sosial Tədqiqatlar Mərkəzi rəhbərinin qənaətincə, bu, zaman-zaman baş verən təxribatdır: "Ermənistanın məqsədi Azərbaycanı, lokal da olsa, toqquşmaya cəlb etməklə atəşkəsə əməl etməməkdə, sülh istəməməkdə günahlandırmaq cəhdidir. Amma bu, baş tutan məsələ deyil. Dünya bilir ki, işğalda olan Azərbaycan torpaqlarıdır. Odur ki, Ermənistan hərbi qüvvələri bu torpaqları tərk etməlidir. Məsələ həllini beynəlxalq hüquq və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tapmalıdır. Bunun başqa yolu yoxdur".

Onu da xatırladaq ki, 2018-ci ilin sonunadək Sərhəd Qoşunları düşmənlə üzüzə olmayıb. Həmin vaxtdan Qazax və Ağstafa istiqamətində Sərhəd Qoşunları dövlət sərhədinin mühafizəsini üzərinə götürdü. Bu dövrdə qarşı tərəf düşündü ki, sərhədçilərin təcrübəsizliyindən istifadə edib təxribat yarada və psixoloji üstünlüyü qazana bilər. Lakin 2019-cu ilin fevralından sərhəddə düşmənin başlayan təxribat fəaliyyətlərinin heç biri effektiv olmadı. Əksinə, Sərhəd Qoşunları, yuxarıda qeyd olunduğu kimi, 2-ci Şıxlı və Babakər yüksəkliyi istiqamətlərində yeni mövqelərə çıxaraq möhkəmləndilər. Nəticədə daha geniş əraziyə nəzarət etmək imkanı qazanıldı. Düşmənin təxribatlarının davam etməsi bu imkanları məhdudlaşdırmağa hesablanmasa da, bunun mümkünsüzlüyü, əslində ermənilər tərəfindən də etiraf olunur. Digər tərəfdən, yaranmış vəziyyət Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzərindən də xətt çəkir. Rusiyanın tanınmış ictimai xadimi, tarixçi-alim Oleq Kuznetsov da məsələyə eyni prizmadan yanaşır: "Savaşın yenidən başlanması Ermənistan üçün dağıdıcı nəticələrə gətirib çıxaracaq. Bu mənada yaxşı olardı ki, Ermənistan sülh danışıqlarında real addımlar atmaq cəsarətini, nəhayət, özündə tapa bilsin. Əks təqdirdə savaşın yenidən başlanması qaçılmazdır. Bunu baş nazir Nikol Paşinyan özü də yaxşı bilir. Müharibənin davamının Ermənistan üçün daha dağıdıcı nəticələrə gətirib çıxaracağını da İrəvanda yaxşı bilirlər. Bu səbəbdən Ermənistan artıq ya real addımlar atmalı, ya da yeni fəlakətlərə hazır olmalıdır".

Bütün bu qeyd edilənlər bir daha təsdiq edir ki, Qarabağ münaqişəsi istənilən an alovlana bilər. Sadəcə, əsas məsələ budur ki, Ermənistan tərəfi reallıqdan nəticə çıxarıb məntiqlə hərəkət etməli, zəbt edilmiş ərazilərin boşaldılmasına başlamalıdır. Əks təqdirdə düşməni ordumuzun sarsıdıcı zərbələri gözləyir. Düzdür, hələ də Azərbaycan danışıqlar yolu ilə Dağlıq Qarabağ münaqişəsini həll etmək istəyir. Amma bu mümkün olmadıqda, hərbi yol istisna deyil. Azərbaycan tərəfinin mövqeyi konkretdir, yəni məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Ermənilər işğal etdikləri torpaqlardan çıxmalıdır, daha sonra digər məsələlərlə bağlı danışıqlar mümkün sayılır. Ekspertlər isə bu fonda diqqəti ona yönəldir ki, indilikdə Ermənistanın daxili və xarici siyasətinin həmişəki kimi reallıqdan uzaq olub, qeyri-konstruktiv və əsassız prinsiplərə söykənir. Bu və digər problemləri, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə bağlı uğursuzluqalrını gizlətmək üçün isə Paşinyan getdikcə daha çox radikal mövqe nümayiş etdirir. Amma bu radikallıq Ermənistanın özü üçün kəskin problemlər yaradır. Eyni zamanda Ermənistanın bu mövqeyi regionda kifayət qədər təhlükəli vəziyyət yarada bilər. Burada, yuxarıda qeyd olunduğu kimi, müharibə riski artır. Ekspertlər hesab edirlər ki, hansısa məqamda regionda hərbi əməliyyatlar başlaya bilər. Bu məqamın regiondakı duruma təsiri isə daha çox dərəcədə mənfi ola bilər. Amma Ermənistan üzündən regionda geosiyasi mənzərənin qeyri-müəyyənliyə salınmasının qarşısını asanlıqla almaq olar. Bunun üçün Minsk Qrupunun həmsədrlərinin Ermənistandan Qarabağ münaqişəsinə dair qəbul edilən sənədlərin müddəalarına əməl etməsi tələbini qəti qoyması kifayətdir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar bu fonda daha tez nəticələr verə bilər. Əks təqdirdə savaş qaçılmaz sayılır və Azərbaycanın sürətli inkişafı, hərbi sahədə nailiyyətləri savaşın nəticələrinin necə olacağını da indidən müəyyən etməyə əsas verir. Amma görünən həm də odur ki, İrəvanda Azərbaycanın gücünü real əsaslar üzərində hesablamaqda hələ də çətinlik çəkirlər. Təbii ki, bu durumda da təxribatçı müstəvidə atılan addımlar savaşı tətikləmədən başqa heç nəyə xidmət etmir.

Burada o da nəzərə alınmalıdır ki, Ermənistanın ordu və digər sahələrdə ciddi problemləri getdikcə daha dəhşətli vəziyyət almağa başlayır. Məhz belə vəziyyətdə mümkün savaş Ermənistanı çökdürməkdən başqa heç nəyə xidmət etməyəcək. Azərbaycan isə savaşı istsina etmədiyindən, bu istiqamətdə intensiv hazırlıqlar görüb. Dünya da bilir ki, Azərbaycan üçün burada bir məqsəd var və o da işğal altındakı əraziləri geri qaytarmaqdır. Bu fonda Azərbaycan daha çox silah alır və daha da güclənir. Təbiidir ki, danışıqlar nəticə verməsə, bu silah Ermənistan ordusuna qarşı tətbiq ediləcək. Elə ekspertlər də bildirir ki, düşmən təxribatlarının davamı fonunda Azərbaycan yenidən hərbi əməliyyatlara başlayarsa, aprel döyüşlərində və Günnüt əməliyyatlarında olduğu kimi, Ermənistan növbəti dəfə Silahlı Qüvvələrimizin sərt zərbəsinə tuş gələcək. Beləliklə, yaranmış vəziyyət Qarabağ məsələsində yaxın tezlikdə müəyyən yeniliklərin olacağını istsina etmir. Azərbaycan ya hərb, ya da sülh yolu ilə məsələnin həllində artıq irəliləyişlərin olmasında israrlıdır. Amma real vəziyyət göstərir ki, Bakı məsələnin çözümündə hərbi güc amilindən istifadə etməli olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycanın səhm strategiyası ölkəni koronavirus dövrünün yeni böhranından xilas edə biləcək...

**Son günlərdə belə proqnozlar irəli sürülməyə başlanıb ki, koronovirus problemi indiki templə yayılmaqda davam etsə, dünya üçün yeni qlobal iqtisadi böhranın yaşanması qaçılmaz olacaq. Əslində, proseslərin real inkişaf axarı da yeni qlobal böhranın yaxınlaşmaqda olduğunu göstərir.**



ABŞ Beynəlxalq Maliyyə İnstitutunun proqnozuna görə, cari ildə dünya ÜDM-nin artımı 1%-ə yaxın olacaq ki, bu da 2008-ci ildəki maliyyə böhranından sonrakı dövrdə ən aşağı səviyyədir. Təşkilatın rəhbəri və baş iqtisadçı eksperti Robin Bruks qeyd edir:"Biz ABŞ-da ÜDM artımına dair builki proqnozumuzu 2%-dən 1,3%-dək, Çindəki iqtisadi artıma dair isə 5,9%-dən 4%-dən də aşağıya azaltmışıq. Dünya iqtisadi artımı ötənilki 2,6%-dən, görünür ki, 1%-ə yaxın olacaq".

Bütün dünyada tədarük zəncirlərində ciddi çətinliklər yaşandığına diqqət çəkən ekspert koronavirusun yayılması və buna qarşı mübarizə tədbirləri üzündən xidmətlər sahəsinin də ciddi fəsadlarla üzləşəcəyi barədə xəbərdarlıq edib. Dünya iqtisadiyyatında önəmli paya malik Çin və virusun böyük təsir göstərdiyi digər ölkələr giriş-çıxış qadağaları tətbiq edib ki, bu da istehsalı iflic vəziyyətə salıb, təchizat zəncirini kəsib, turizm və digər mühim sektorlara ziyan vurub. Yaxın Şərqdən Avropaya kimi bir çox ölkələrdə səhiyyə rəsmilərinin yeni koronavirus hallarını təsdiqləməsi Birləşmiş Ştatlardan tutmuş Asiya və Avropaya qədər bir çox yerdə fond birjalarına mənfi təsir göstərib. Yaponiyada, Koreyada və Avstraliyada da iqtisadi artım yavaşımağa başlayıb. Koronovirusun təsiri domino effekti ilə Asiya-Sakit okean bölgəsindən Avropa və Şimali Amerikaya yayılmağa davam edir. Mütəxəssislər bu fonda sürətlə yayılan koronovirusun böhrana səbəb ola biləcəyi, bütün dünyada insanların həyatına və işinə ağır zərbə vurmağa davam edəcəyi ilə bağlı xəbərdarlıq edir. Məhşur "Al Arabiya" nəşri bu xüsusda bildirir: "Daimi səyahət, ölkələr arasında mal və xidmətlər tədarükü XXI əsrin ayrılmaz hissəsinə çevrilib. Beləliklə, epidemiyanın qlobal iqtisadiyyatın iflasına səbəb olma risqi bəşər tarixindəki bütün dövrlərdən daha yüksəkdir. Təkcə ötən həftə dünyanın bir çox şirkətləri qlobal koronavirus epidemiyası təhlükəsi qarşısında bazarların çökməsi səbəbindən beş trilyon dollar itirib. Birjada qiymətlərin düşməsi 2008-ci ildəki qlobal iqtisadi böhrandan bəri ən güclü səviyyəyə çatıb. Dünya Bankı yaxınlaşan qlobal maliyyə böhranı ilə əlaqədar xəbərdarlıq edib. Təşkilat bildirib ki, yaxın bir neçə ildə qlobal sarsıntılar gözlənilmirdi, lakin 2019-cu ildən sonra vəziyyət çox həyəcanverici həddə çatıb".

Proses Qafqaz ölkələrində də özünü göstərir. Amma burada fərqliliklər də gözə çarpır. Məsələn, koronavirus qonşu Gürcüstanda turizmə böyük zərər vurub və vəziyyət dəyişməsə, Gürcüstanda ÜDM-nin həcmi əhəmiyyətli dərəcədə azalacaq. Yaranmış durum ölkənin valyuta ehtiyatlarına da ciddi təsir edir. Ermənistanda isə vəziyyət daha ağırdır. Ölkənin İran və Gürcüstanla əlaqələrinin kəsilməsi burada tədricən ərzaq çatışmazlığı və bahalaşması ilə müşayiət olunur. Yerli istehsal çox az olduğundan tələbi qarşılaya bilmir. Cari ildə bu durumda Ermənistanda iqtisadi tənəzzülün daha kəskin xarakter alması gözlənir. Azərbaycanda isə vəziyyət bir qədər fərqlidir. Əvvəla, daxili istehsal həcminin artımı Azərbaycanda ərzaq və digər sahələrdə təminat baxımından Gürcüstan və Ermənistanda olduğu kimi acınacaqlı vəziyyət yaratmır. Ölkənin böyük valyuta ehtyitalarına malik olması, fond birjalarında o qədər də yaxından iştirak etməməsi də Azərbaycana əlavə üstünlüklər qazandırır. Yuxarıda qeyd olunduğu kimi, hazırda dünyada ən risqli sahə səhm bazarlarıdır. Təkcə ötən həftə dünyada qiymətli kağızlar bazarında trilyonlarla dollar itki olub. Bu ilin ötən dövründə də itkilərin həcmi böyük olub. Azərbaycanda səhm bazarına sərmayə qoyuluşu Dövlət Neft Fondu tərəfindən həyata keçirilir. Fondun portfelinin cəmi 14,1 faizini səhmlər təşkil edir. Dövlət Neft Fondu digər risqli aktivlər sayılan aşağı reytinqli dövlətlərin və şirkətlərin borc kağızlarına da sərmayə yatırmayıb. Yəni Dövlət Neft Fondunun portfelinə aktivlər nöqteyi-nəzərindən də konservativ yanaşma var.

İndiki halda Azərbaycan üçün əsas təhdid dünya enerji bazarlarında qiymətin aşağı enməsidir. Amma Vyanada keçirilən Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) Nazirlər Şurasının 178-ci iclasında kartelə üzv ölkələr neft hasilatının gündəlik 1,5 milyon barrel azaldılmasına razılıq verib. Bu isə neftin qiymətini yüksələcəyi təqdirdə, Azərbaycan bu sarıdan da problem yaşamayacaq. Hesablamalar isə onu da üzə çıxarır ki, Azərbaycan neftin hətta hər barrel üçün 30 dollardan da aşağı həddinə immunitet qazanıb. Yəni neft bu qiymətə düşsə belə, Azərbaycan hansısa ciddi problem yaşamayacaq.

Daha bir mühüm məsələ xarici ticarətlə bağlıdır. Belə görünür ki, Çin və İranda virusun sürətlə yayılması həmin ölkələrlə ticarətimizə ciddi təsir edəcək. Amma Azərbaycan bu məqamı da kompensasiya etmək imkanlarına malikdir. Belə ki, ötən il Azərbaycan tərəfindən Çinə 752 milyon dollar dəyərində mal ixrac edilib, bu ölkədən idxalımız isə 1,4 milyard dollar olub. Ötən il İrana 41 milyon dollar dəyərində mal ixrac olunub, idxalımız isə 453 milyon dollar olub. Yəni 2019-cu ildə idxalımızın 10,48 faizi Çinin, 3,31 faizi İranın payına düşüb. Amma zərurət yarandığı təqdirdə bu idxalı da başqa ölkələrlə əvəzləmək mümkündür. Əslində bununla bağlı alternativlər də mövcuddur. Məsələn, ötən il qardaş Türkiyə ilə ticarət dövriyyəmiz 33 faiz artıb və 4,5 milyard dollara çatıb. Amma bu rəqəmin 2023-cü ildə 15 milyard dollara çatdırılması hədəflənir. Yəni Çin və İranı tədricən Türkiyə əvəz edir. Digər tərəfdən, ötən ay Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının son iclası fonunda "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə hökuməti arasında Preferensial Ticarət Sazişi" imzalanıb. Preferensial Ticarət Sazişi də imkan verir ki, Türkyədən alınan mallar Azərbaycan bazarında daha ucuz olsun. Eyni zamanda bu saziş nəticəsində Azərbaycan ixracatçıları da Türkiyəyə qeyri-neft sektoruna aid daha çox mal ixrac etmək imkanı qazanır.

Bundan başqa, Çindən və İrandan koronavirusa görə dünya bazarlarına, xüsusən də meyvətərəvəz və içkilərin ixracı azalır. Bu isə Azərbaycana imkan verir ki, qeyd edilən məhsullarının ixracını daha yüksək qiymətə və daha çox həcmdə genişləndirsin, xarici bazarlarda yeni mövqelər tutsun.

Başqa bir mühüm məqam odur ki, dünya turizmində geriləmə Azərbaycandan xaricə gedənlərin sayına mənfi təsir edir və bu da valyutanı daha böyük miqdarda ölkədə qalmasına təsir edir. Bütün bunlar o deməkdir ki, Azərbaycan qlobal miqyasda yaranmış yeni iqtisadi böhrana daha çox müqavimət imkanı qazanır.

***Ramil QULİYEV***

Dünya ölkələri koronavirus epidemiyasının inkişaf trayektoriyasını dəyişə bilər. "Trend"in məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Gebreyesus gündəlik brifinq zamanı deyib.

# Hansı ölkənin koronavirusa yoluxma həddində dəyişikliklər oldu...

*Dünya ölkələri koronavirusun inkişaf trayektoriyasını dəyişə bilər*



O bildirib ki, ÜST virusun yayılması məsələsində ümidverici əlamətlər görür: "Bəzi ölkələr çoxlu sayda yoluxma barədə məlumat versələr də, 115 ölkədə ümumiyyətlə yoluxan olmayıb. Son iki həftə ərzində 21 ölkədə yalnız 1 yoluxma qeydə alınıb, 5 ölkədə isə yoluxan olmayıb".

Baş direktor əlavə edib ki, epidemiyanı kollektiv səylər nəticəsində dayandırmaq olar: "Əgər bütün ölkələr addım atsa, bu epidemiyanın trayektoriyasını dəyişmək olar".

Onun sözlərinə görə, şayiələr və dezinformasiya ilə mübarizə bu virusla mübarizənin vacib hissəsidir.

Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla bağlı son statistik məlumatları və risq göstəricilərini də yayımlayıb. Bu göstəricilərə görə, son 24 saat ərzində Bosniya və Herseqovina, Cəbəli-Tariq, Macarıstan, Sloveniya, işğal olunmuş Fələstin ərazilərində koronavirus xəstəliyinə (COVID-19) ilk yoluxma halları qeydə alınıb.

Belə ki, dünya üzrə 2241-i yeni olmaqla ümumilikdə 98,851 yoluxma halı aşkarlanıb. Çində isə bu rəqəm 80 565 minə çatıb. Həmçinin burada 3390 ölüm qeydə alınıb. Onlardan 31-i son 24 saat içində ölənlərdir.

Çindən başqa digər ölkələrdə yoluxma sayı ümumilikdə 85 ölkə/ərazi üzrə 14 768 nəfərdir. Onların içərisində yoluxan 267 şəxs artıq ölüb. Bu günə qədər virus infeksiyasından 55,807 şəxsin sağaldığı qeydə alınıb.

ÜST-ün risk qiymətləndirməsi:

Çində: Çox yüksək

Regional səviyyədə: Çox yüksək

Qlobal səviyyədə: Çox yüksək

Fransanın Milli Assambleyasının (parlament) deputatında yeni növ COVİD-19 koronavirusu aşkar edilib. Bu barədə parlamentin spikeri Rişar Ferran məlumat verib.

Həmkarlarının sözlərinə görə, 68 yaşlı Jan-Lyuk Reytser Müliz şəhərində xəstəxanaya yerləşdirilib. Son dəfə o, parlamentin iclasında fevralın 25-i iştirak edib.

Son məlumata əsasən, Fransada yeni növ koronavirusa 420 nəfər yoluxub, onlardan 7 nəfəri ölüb.

İspaniyada koronavirusdan dördüncü ölüm faktı qeydə alınıb. Valdemoro şəhərində qocalar evində yaşayan qadın virusun növbəti qurbanı olub. Bundan başqa, virus daha 20 nəfərdə aşkar olunub. Onlardan 16-sı sözügedən qocalar evinin işçiləri və sakinləridir. Dörd nəfər reanimasiyaya yerləşdirilib. İranda yeni koronavirus nəticəsində indiyədək ölənlərin sayı 124 nəfərə çatıb. Bunu İranın Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyinin m?tbuat xidm?tinin müdiri Kiyanuş Cahanpur deyib. K.Cahanpurun sözlərinə görə, ötən sutka ərzində bu virusdan 17 nəfər dünyasını dəyişib və 1 234 yeni yoluxma təsdiqini tapıb. Onun sözlərinə görə, İranda ümumilikdə 4 747 nəfər bu virusa yoluxub. Nazirlik rəsmisi 913 nəfərin sağaldığını deyib.

İran xəstəxanalarında koronavirusa yoluxma şübhəlilərinin sayı təxminən 16 min nəfərdir.

İtaliyada yeni növ COVİD-19 koronavirusundan daha 41 nəfər ölüb. "RİA Novosti"nin verdiyi məlumata görə, bunu Mülki Müdafiə Xidmətinin rəhbəri Ancelo Borrelli deyib. O deyib ki, İtaliyada yeni koronavirusdan ölənlərin sayı 148 nəfərə, yoluxanların sayı isə 3858 nəfərə çatıb.

Çində koronavirusun yeni ştammına yoluxanların sayı 80 min 565-yə çatıb. Bu barədə Çin Xalq Respublikasının Gigiyena və Səhiyyə məsələləri üzrə Dövlət Komitəsinin məlumatında deyilir.

Məlumata görə, koronavirusa yoluxanlardan 3044-ü ölüb, hazırda 29 896 nəfər xəstəxanada müalicə alır. Vurğulanır ki, bu xəstəliyə yoluxan 53 726 nəfər isə sağalıb.

Çin hökuməti koronavirusa qarşı hazırlanan vaksinlərin sınaqlarının aprel ayından başlayacağına ümid edir. Çinin Səhiyyə Məsələləri üzrə Dövlət Komitəsinin Tibb elmləri və texnologiyaların inkişafı Mərkəzinin direktoru Çjen Çjunveyin sözlərinə görə, koronavirusun bu müddət ərzində mutasiyaya uğraması vaksinin hazırlanma prosesinə təsir etməyib.

Qeyd edək ki, bir müddət əvvəl virusun yayılmağa başlamasından sonra təxminən 150 dəfə mutasiyaya uğradığı bildirilmişdi.

---

Universitetlərdə, eləcə də elmi-tədqiqat institutlarında dissertasiya və müdafiə şuralarına əsasən rektorların, institut direktorlarının rəhbərlik etməsi elmi ictimaiyyət tərəfindən birmənalı qarşılanmır. Bunun olduqca ziyanlı tendensiya olduğunu qeyd edən elm adamlarının sözlərinə görə, bu o deməkdir ki, burada müdafiə və dissertasiya şuralarının üzvlərinin deyil, rektorların, institut direktorlarının sözü hər şeyi həll edir.

# Rektorların dissertasiya şuralarına rəhbərlik təcrübəsi və Azərbaycan mühitində onun fəsadları...

***İlqar Orucov:*** *"Fikirləşirəm ki, rektorun öz ixtisasına uyğun müdafiə şurasının sədri olması da düzgün deyil, ən azından, vaxt baxımından"*



Bir sıra hallarda elmi işlərin formal şəkildə müdafiəyə buraxılmasında bu məsələnin ciddi rol oynadığı deyilir. Yeni rektor, institut direktoru kimi deyirsə, onun elmi işi də irəli gedir. Hər hansı bir dissertasiya işində onların marağı varsa, şura üzvlərinin ona hər hansı bir nöqsan tutmasına, elmi işin zəif cəhətlərini vurğulamasına ixtiyarı çatmır. Onu deyək ki, çox zaman bu şuraların üzvlərinin burada mövcudluğu formal xarakter daşıyır. Bu da, qeyd etdiyimiz kimi, universitet və elmi-tədqiqat institutlarının rəhbərlərinin bu məsələdə oynadığı əsas rolla bağlıdır. Hər şey onlar tərəfindən həll edilir.

Rektorların elmi şuralara və müdafiə şuralarına rəhbərlik etməsi nə dərəcədə doğrudur?

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika- riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, universitet rektorlarının müdafiə şuralarına rəhbərlik etməsi ilə bağlı gündəmə gətirdiyimiz mövzu çox aktualdır və geniş müzakirəyə ehtiyacı var. "Amma, bütövlükdə, müdafiə şuraları birmənalı olaraq ixtisaslı mütəxəssislərdən formalaşmış şuralar olur. Ona görə də müdafiə şuralarının rəhbərləri demək olmaz ki, yalnız rektorlardan ibarətdir. Düzdür, konkret istiqamətlər üzrə formalaşan elmi-tədqiqat institutlarında direktorun müdafiə şurasının sədri olması hardasa anlaşılandır. Məsələn, götürək Milli Elmlər Akademiyasının Tarix İnstitutunu. Bu institut bilavasitə tarixin tədqiq olunması ilə bağlıdır, bu, araşdırma, tədqiqat institutudur. Burada da, tutalım, müdafiə şurasının sədri Tarix İnstitutunun direktorudur. Yaxud digər elmi-tədqiqat institutları və sahə institutlarını götürək. Burada hardasa institut direktorunun müdafiə şurasının sədri olması başadüşüləndir. Amma ali məktəblərdə, universitetlərdə isə vəziyyət başqa cürdür. Çünki hansı ali məktəbdə müdafiə şuraları var (hamısında yoxdur), orada rektor yalnız bir müdafiə şurasının sədri ola bilər. Rektor ancaq öz ixtisasına uyğun olan müdafiə şurasına rəhbərlik edə bilər. Amma digər müdafiə şuralarının sədrləri ölkənin aparıcı alimləri olurlar. Bu şuralar daha çox tanınmış mütəxəssislərdən ibarət fəaliyyət göstərir. Düşünürəm ki, müdafiə şuralarını bu qədər bürokratikləşdirmək düzgün deyil. Biz müdafiə şuralarını bürokrartik əngəllərdən xilas etmək üçün universitetlərdə etibar edəcəyimiz alimlər ordusunu formalaşdırmalıyıq və müdafiə prosesini onlara həvalə etməliyik. Postsovet məkanı istisna olmaqla (bəzilərində yoxdur - İ.O.) dünyanın heç bir yerində nə akademiya (akademiyalar klublar şəklində fəaliyyət göstərir - İ.O.), nə də ali attestasiya komissiyaları var. Müdafiə prosesini həyata keçirən komissiyalarda isə kimsə deyə bilməz ki, hansısa şübhəli məqamlar, neqativliklər olur. Amma təəssüf ki, bizdə belə deyil, alimlərə inam yoxdur. Mənfi haldır ki, hələ də bu neqativ proseslər belə şəkildə davam edir. Daha çox burada administrativ məqamlara üstünlük verilir. Halbuki, bu proses bu cür olmamalı idi.

Fikirləşirəm ki, rektorun öz ixtisasına uyğun müdafiə şurasının sədri olması da düzgün deyil, ən azından, vaxt baxımından. Prosesi idarə etməyin özü də, əslində, bir vəzifədir. Əslində, müdafiə şurasının sədrlərinin çox zaman müdafiə şuralarının işindən xəbəri olmur, bu işi daha çox elmi katiblər həyata keçirirlər. Bu şuralara müstəqil bir alimin rəhbərlik etməsi daha yaxşı olar. O bu işə daha çox diqqət ayıra bilər və üzərinə düşən işi kimi onu daha dəqiq yerinə yetirmək imkanına malik olar. Bu baxımdan da hesab edirəm ki, administrativ şəxslərin bu kimi işlərə rəhbərlik etməsi düzgün deyil. Bir məsələyə təəssüf edirəm ki, həm institut direktorları, həm də rektorlar o sahələrdə olan məqalələrə öz adlarını zorla, təkidlə yazdırırlar.

Eyni zamanda, o sahələrdə çap olunan kitablarda rektor və institut direktorlarının, rektorların adı birinci yazılır. Hətta rektorlar var ki, görürsən 1000 məqaləsi var. Min məqaləni bir insan yaza bilməz. Dünyanın heç bir yerində belə qeyri-ciddilik, elmə bu cür yanaşmaq, elmdən bu qədər spekulyasiya etmək yoxdur. Ona görə də rektor adı bəziləri üçün hardasa bir qədər qoruyucu funksiyasını yerinə yetirir. Biz etibarlı, bütün neqativliklərdən uzaq olan alimlər formalaşdırmalıyıq ki, onlar heç nədən asılı olmayaraq obyektivlik ortaya qoysunlar, qərəzsiz, dürüst olsunlar. Bundan sonra biz elmdə inkişafdan danışa bilərik" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

# Azərbaycanda "feminizm hərəkatı"? - Qadınlara hansı ayrıseçkilik var ki...

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Azərbaycan Feminist Hərəkatının martın 2-də "8 Mart - Bizimdir Hürr Küçələr" yürüş keçirməklə bağlı müraciətinə cavab verib.**

APA-nın məlumatına görə, cavabda qeyd edilib ki, yürüşün keçirilməsi üçün müraciətdə qeyd olunan ərazi əhalinin daha sıx hərəkət etdiyi ərazi olduğundan, həmçinin, burada çoxlu iaşə, ticarət, xidmət və əyləncə obyektləri yerləşdiyindən, ictimai təhlükəsizlik baxımından kütləvi tədbirin keçirilməsi məqsədəmüvafiq deyil. Yürüşün keçirilməsi üçün alternativ yer olaraq müraciət edənlərə martın 8-də, saat 15:00-dan 16:00-dək Qaradağ rayonu, Lökbatan qəsəbəsi, 28 May küçəsi ilə Həzi Aslanov küçəsinin kəsişməsindən, Həzi Aslanov küçəsi ilə "Neftçi" İdman Klubu İctimai Birliyinin Qaradağ təlim-idman bazasının yanından hərəkət etməklə 20 Yanvar küçəsi boyunca 5-ci yaşayış massivi istiqamətində olan marşrut təklif olunub.

Qeyd edək ki, Azərbaycan Feminist Hərəkatı martın 2-də martın 8-də, 15:00-da Nizami küçəsindən "Kolorit" kafesinin qarşısına qədər yürüş keçirmək üçün BŞİH-yə müraciət edib. Aksiyanı keçirmək istəyənlər niyyətlərini belə izah ediblər: "Həmin gün biz cəmiyyəti patriarxatdan azad etmək və səsimizi duyurmaq naminə birləşəcəyik. 8 Mart tarixən qadınların öz hüquqlarını tələb etmək məqsədilə etirazlar keçirməsi üçün təyin olunmuş gündür. Biz öz mübariz köklərimizə geri qayıtmalı, haqlarımız uğrunda yenidən birləşməliyik.

Yürüşün məqsədləri çoxsaylı qadın qətlinə, erkən nikahlara, uşaq istismarına, gender əsaslı zorakılığa etiraz etmək, insanları kişi hakimiyyətinə qarşı səfərbər etməkdir".

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquq şöbəsinin rəhbəri Taleyə İbrahimova Beynəlxalq Qadınlar Gününə həsr edilmiş tədbirdə deyib ki, Azərbaycanda heç vaxt feminizm hərəkatı olmayıb. Azərbaycanda ziyalı qadınların hərəkatı olub. Onun sözlərinə görə, bu gün Azərbaycanda qadın məsələləri ilə məşğul olan 300-ə yaxın təşkilat fəaliyyət göstərir.

O deyib ki, qadınları hüquqları haqqında maarifləndirməklə yanaşı, onlara iqtisadi baxımdan dəstək olmaq üçün də layihələr həyata keçirilir: "Azərbaycanda hazırda 9 qadın resurs mərkəzi fəaliyyət göstərir. İndiyədək Azərbaycanda 265 qadın sahibkar formalaşıb".

Taleyə İbrahimova, həmçinin, vurğulayıb ki, son illər ölkədə erkən nikahların sayı azalıb.

Azərbaycanda doğrudan da qadınlara qarşı heç bir ayrıseçkilik yoxdur. Ölkəmiz dünyəvi qanunlarla idarə edildiyindən, qadınlara qarşı cinsi ayrıseçkilikdən söhbət belə gedə bilməz. Azərbaycan qadınları ölkənin bütün aktiv sahələrində yaxından iştirak edirlər. Bura radikal dini qanunlarla idarə olunan ölkə deyil ki, hansısa feminizm hərəkatına ehtiyac duyulsun. Aksiyanı təşkil edənlərin tələblərindən də görünür ki, əsası olmayan fikirlər irəli sürülür.

### Yasəmən Möhübbətqızı: "Bu cür üsullarla bizim cəmiyyətdəki milli, əxlaqi dəyərləri aşındırmaq istəyirlər"



Ümumiyyətlə, Azərbaycanda feminist hərəkatına ehtiyac varmı?

Respublikada qadın hərəkatının fəallarından olan Yasəmən Möhübbətqızı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə tələbləri irəli sürənləri araşdırsanız, kökləri gedib xarici ölkələrə çıxacaq: "Mən uzun müddət Respublika Qadınlar Təşkilatının rəhbər strukturlarında təmsil olunmuşam. Bu həm SSRİ, həm də müstəqillik dönəmini əhatə edib. Hazırda da aktiv fəaliyyətlə məşğulam, müxtəlif layihələr həyata keçirirəm. Birmənalı şəkildə deyə bilərəm ki, Azərbaycanda qadınlara qarşı heç bir ayrıseçkilik yoxdur. Əksinə, cəmiyyətin böyük dəstəyini hiss etmişik. Bizim ölkəmizdə fəal qadınlara daha çox diqqət və dəstək verilir. Əminliklə deyə bilərəm ki, qadına olan hörmət, ehtiram yüksək səviyyədə olduğu üçün, hətta qadınlar karyera pillələrində daha tez irəliləyə bilirlər. Bütün bunlar bizim milli-mənəvi dəyərlərimizdən irəli gəlir. Qadına hörmət bizim cəmiyyətimizdə normaya çevrilib. İctimai nəqliyyatda gedəndə fikir verin. Görün bir qadını ayaq üstə saxlayırlarmı? Bütün cavanlar durub qadına yer verir. Bunu siz dünyanın başqa yerlərində görə bilməzsiniz. Belə münasibət heç bir direktivlə tənzimlənmir. Bu, cəmiyyətin özünün müəyyənləşdirdiyi dəyərlərdir. Belə vəziyyətdə olan ölkədə hansı feminizmdən danışmaq olar? Qadınlara qarşı cinayətin olduğunu əsas gətirirlər.

**Dünyanın heç bir ölkəsində hər hansı bir qadın cinayətin qurbanı ola biləcəyindən sığortalanmayıb. Bizdə də hər hansı qadına qarşı cinayət törədilirsə, buna kriminal hadisə kimi baxmaq lazımdır. Məqsədli şəkildə olunan siyasətin tərkib elementi kimi yox. Bu cür çağırışları dövlətimizdəki stabilliyə müdaxilə kimi dəyərləndirirəm. Hesab edirəm ki, bu cür üsullarla bizim cəmiyyətdəki milli, əxlaqi dəyərləri aşındırmaq istəyirlər. Dünyanın heç bir yeri ilə müqayisə olunmayan ailə institumuz var. Bunu kim inkar edə bilər? Azərbaycan dini dövlət deyil ki, burada qadınların hansısa haqlarını qorumağa ehtiyac olsun. Bütün bunları əsassız və lüzumsuz sayıram".**

***Məhəmmədəli QƏRİBLİ***

# İgid ömrü

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**



**(Beşinci yazı)**

*Qar-sazağın içində kəsilən sonuncu ümid...*
*Talandı torpağımız*
*Qaraldı çırağımız...*
Bəxtiyar Vahabzadə

**Malıbəylidən sonrakı növbədə - Xocalı**

Nazimi dinləmək çox çətindi. Nazimdən sonra Xocalı dəhşətlərini bir çox şahid soydaşlarımızın dilindən eşitdim. Amma Nazim bu əsnada ilk həmsöhbətim idi. Onunla bütün söhbətimiz, deməkolar ki, göz yaşları içərisində davam etdi. O, Xocalıya da, Füzuliyə də həddən ziyadə bağlı bir eloğlumuzdu. Xocalının başına gətirilən bu miqyassız faciədən məğlub durumda çıxdığımıza görə bütün təltif təkliflərindən imtina etmişdi Nazim Hüseynov. Lakin vətənpərvərliyin bütün çalarlarının məhz dostu Zaminin simasında cəmləşdiyini dilə gətirən Nazim onun bu titulu hələ sağlığında haqq etdiyini də söyləyir. Xocalı qətliamının bütün əzablarından keçmiş sabiq polis və döyüşçü ilə söhbətimiz ağır-ağır, xatırlamalarla davam edir:

- Dedilər erməni kənddədi. Dedim mən aeroporta baş çəkməliyəm. Qardaşıma dedim bibimi də götürüb çıxsın. Çıxdılar. Onlar çıxandan sonra getdim aeroporta. Burda ratsiya ilə xəbər verdilər ki, siz artıq oranı tərk edin, onsuz da mühasirədəsiz. Bu xəbərdarlıqdan sonra aeroportun rəisi, Azərbaycanın Milli Qəhrəmanı, rəhmətlik Əlif Hacıyev göstəriş verdi ki, artıq hamılıqla çıxmaq lazımdı. Beləcə, bizlər də öz iş yerimizi - Xocalı aeroportunu tərk edib çıxmalı olduq. Qarqar çayını keçəndən sonra ağlıma gəldi ki, axı mənim atam evdə qalıb. Kişiyə əvvəldən nə qədər deyirdim ki, deyəsən belə getsə çıxmalı olacağıq, deyirdi çıxmıram, erməni kimdi ki?!

Deməli, Xocalıdan çıxırıq, baxdım ki, rəhmətlik Füzuligilin evi yanır, yəni babası Kərim kişinin evi, dedim mən qayıtmalıyam. Dedilər hara qayıdırsan, qapıbir qonşunda ev artıq yanır. Dedim, mənim atam orda qalıb, nə olur-olsun onu qoyub gedə bilmərəm. Atamı ermənilər köməksiz vəziyyətdə öldürsə və ya əsir aparsa, mən buna dözə bilmərəm, heç vaxt bunu həzm eləyə bilmərəm. Qərar qəbul elədiyim kimi qayıtdım. Bizim evin təxminən 50 metrliyindən dəmiryolu keçirdi. Dəmiryolunun üstündə oturub bir qədər dinşədim ətrafı və həyətimizi. Baxdım ki, həyətimizdə sakitlikdi. Girdim su quyusunun yanından həyətə, ikimərtəbəli evimizin qabağında artırma var idi, orda atamı bir-iki ağız "Qağa-qağa" deyə səslədim. Gördüm səs gəlmədi. Bu an sanki qılçalarım (Qarabağda qıçların orta nahiyəsinə "qılça" deyirlər, çalışıram bəzən belə dialekt sözlərinə toxunmayım - N.Z.) yerindən qırıldı. Bir anlıq düşündüm ki, erməni kişini aparıb yeqin. Nələr keçdi o anda ürəyimdən, onu bir Allah bilir!.. Özümü lənətlədim. Özünə də, dəfələrlə dediyim kimi, başa sala bilməmişdim ki, ən azı camaat çıxanda qoşulub çıxmaq lazımdı. Deyib-dururdu ki, axı erməni kimdi? Başa sala bilmirdim bu erməni sənin gördüyün erməni deyil, bunun gücü yaranıb, topu var, tüfəngi var, arxasında rus var...

Xocalı faciəsi gecəsi bizim düz altı inəyimiz doğdu. Mən dəhşətə gəlmişdim. Dedim, ilahi, atam ömür boyu təsərrüfatla məşğul olub, mal-qara saxlayıb, indi burda 37 baş qaramal, 450 baş qoyun sürüsü qoyub gedir, ancaq indiyəcən bizim tövlədə bir gündə altı inəyin doğması halı ilə rastlaşmamışıq. Gör bu şərəfsiz, nankor, qansız, qatil ermənilərə bizdən nələr qalır?!

**- Xocalının işğal olunacağını isə təxminləşdirirdiniz...**

- Bəli. İşğaldan bir neçə gün əvvəl əlimizə ermənilərin Xocalının işğalına hesablanmış xəritəsi keçmişdi. Deməli, bizimkilər bir polkovniki öldürüb Qarikin oğlu Rudiki əsir gətirmişdilər. Onun əlində həmin xəritə var idi. 16-sı, 17-si fevral tarixlərində Malıbəyli kəndi işğal olundu və açıq-aydın görünürdü ki, növbə bizə çatır. Amma dəqiq günü bilmirdik bu hücum nə zaman olacaq.

**- Atanızı tapa bilmədiniz...**

- Kor-peşman qayıdırdım. Həyətdən çıxırdım ki, ağlıma gəldi bir pəyəyə də baxım. Qonşuluğumuzda da Füzulinin hələ tikilib tam başa çatmayan evi, babasının evi, dediyim kimi, yanırdı. Nə isə, bu alovu da bir yandan ürəyimdə qovrula-qovrula müşahidə edə-edə pəyəmizə girdim. Baxdım ki, içəridə lampa yanır. Aha, atam burdadı! Elə bil ki, bu anda üstümə göydən ilahi nur səpələndi. Çağırdım qağa, burda nə iş görürsən? Dedi mala ot qoyuram, heyvan doğur. Dedim ay rəhmətliyin oğlu, erməni kənddədi ey, sən nə iş görürsən?! Əlində yaba çıxdı çölə, soruşdu doğrudan erməni burdadı, bəs biz getdik, bu mal-heyvan necə olsun? Mal-heyvanı da bir-iki ay öncə çıxartmaq istəyirdim Ağdama, kişi qoymamışdı ki, hara, kimin qapısına aparacağıq bu qədər malı, erməni kimdi, qoy qalsın həyətimizdə. İndi yenə dedi getmirəm. Əsəbiləşdim ki, a kişi, görmürsən nə baş verir, qapıbir qonşumuzun evi yanır. Tutub əlindən yabanı aldım, dedim əgər getməsən, başqa yolum qalmır, bu avtomatla əvvəl səni, sonra da özümü öldürəcəm. Bu sözlərimdən sonra kişi vəziyyətin nə yerdə olduğunu anladı, düşdü qabağıma. İndi atam qabağımca gedir, mən arxasınca. 15-20 metrdən sonra çönüb evə baxıram, düşünürəm ki, mənim valideynlərimin illərlə topladıqlarını biz necə qoyub gedirik, inanın, bayaqdan kişini məcbur edirdim, indi özümün ayaqlarım yerimir, elə bil mənə deyir ki, ay şərəfsiz, buraları qoyub hara gedirsən?! Deyirəm ilahi, mənim anamın evdə bəlkə də bir gecədə qapımızı döyəcək yüz qonağın yatıb-qalması üçün yorğan-döşəyi, qab-qacaq dəstimiz, o boyda evimiz var, biz bunları qoyub necə gedirik görəsən?!.. Bunları düşünürəm, dəhşətə gəlirəm və az qalıram yıxılam. Qaçan insanların uzaqdan ah-naləsin eşidirəm, bu məni bir qədər ayıldır, ayırır fikirlərimdən. Amma yenə bir gözüm evimizdədi...bir də insanın içində bir qürur hissi var ki, mən bu olan-qalanımızı, bu əzabəziyyətlə, böyük zəhmətlər bahasına araya-ərsəyə gətirdiklərimizi axı necə ermənilərə qoyum gedim?!.. Başqa əlac da yoxdu. Artıq hamı qaçır, artıq getmək lazımdı. Saat hardasa gecə 1-ə işləyir..."

**Füzuli - etibarlılıq simvolu**

Bu təbəddülatlı düşüncələrin altında təxminən 500 metr gedib Qarqar çayına çatırlar. Atası suya girmək istəyəndə Nazim etiraz edir. Deyir qoy mən özüm səni kürəyimdə keçirim, çünki bilmək olmaz bizi hələ qabaqda hansı dəhşətlər gözləyir. Ayaqqabılarını soyunub çirmənməklə atasını kürəyində Qarqar çayından keçirir. Qarqar çayının üstündəki tut bağında bir qrup insana çatırlar. Burda ümidlər bir qədər közərməyə başlayır: Ağdamdan ratsiya ilə kömək olacağını deyirlər. "Ümidimizi onlara bağladıq ki, Əsgəranda bizi götürəcəklər. Çünki orda batalyonlar çox idi. Fred Asifin batalyonu, Xalq Cəbhəsinin batalyonu, Qatır Məmmədin batalyonu, Fəhmin Hacıyevin tabeliyində Daxili Qoşunlar və başqaları. Bu qüvvələrin orada olduğunu bilirdik, onların da köməyə gəlməsi kifayət ola bilərdi. Hətta düşünürdük və ümidlənirdik ki, onlar bizi tək qoymayandan sonra qayıdıb kəndimizi də alacağıq.

Lakin çayın üstünə çatanda bir qrup insanın rəhmətlik Aqili (söhbət Azərbaycanın Milli Qəhrəmanı, 21 nəfər döyüşçüyə rəhbərlik etməklə Qarabağa - Xocalıya, Malıbəyliyə köməyə gəlmiş və elə Xocalı qətliamından bir qədər öncə Malıbəylidə ayaqlarından ciddi yaralanaraq sərbəst gəzə bilmək qabiliyyətindən belə məhrum olmuş məşhur döyüşçüdən gedir - N.Z.) əllərinin üstündə apardıqlarını gördüm. Xocalı faciəsi günü o artıq yataqda idi. Biz onu istəyirdik bir neçə gün əvvəl yola salaq, amma bu alınmamışdı. Daha doğrusu, o çətin günlərdə bizim yeganə etibarımız və ümidimiz rəhmətlik Füzuliyə idi ki, o, aparıb gizli meşə yolları ilə Aqili Ağdama çatdırar. Çünki satqınlar da var idi, hər kəsə etibar etmək olmazdı, amma Füzuliyə etibar etmək hər üzünə mümkün idi. Üstəlik, onun işi başa çatdıracağı, doğruldacağı da yüz faiz idi.

**"Əclaflar, şərəfsizlər..."**

...Ağdamdan ratsiya cavab verir ki, sizə heç bir kömək edə bilməyəcəyik...qarın-sazağın içində kəsilən sonuncu ümid... Deməli, nə Əsgərana hücum olacaq, nə də yollara, meşələrə, dağlara səpələnmiş qaçqınlara kömək gələcək... Bu anda bu sözləri eşitmək Xocalı qətliamında şəhid edilməkdən də ağır güllə kimi dəlib keçir insanların ürəyini. Ümid yalnız yuxarıda Allaha, yerdə Əlif Hacıyev kimi, Füzuli Rüstəmov kimi və adını tarixi salnaməmizə qürurla yazmış digər qəhrəmanlarımız kimi oğullara qalır. Ratsiyaya cavabda Xocalı dəstəsinin içindən bir nəfərin gücü yalnız bunu deməyə çatır: "Əclaflar, şərəfsizlər, biz yuxarıda Allaha, aşağıda sizlərə güvənirdik. Düşünmürdük ki, bizi erməni ilə təkbətək qoyacaqsınız. Amma bu gün bizim burda namusumuz da, qeyrətimiz də, hər şeyimiz əldən getdi. Sizi belə-belə olasınız..." Bu həm də bir işarə olur ki, deməli, geriyə dönüş yoxdu, ancaq irəli getmək lazımdı. Beləcə, dəstə gəlib Kətik deyilən yerdə ermənilərin yaşadığı, 90-100 evdən ibarət eyniadlı Kətik kəndinin yanına çatır. Həmsöhbətim deyir ki, strateji baxımdan erməni kəndləri daha yüksəkliklərdə yerləşirdi, amma Xocalı coğrafi məkanca aşağıda - dərə hissədə məskunlaşmışdı.

...Burada Aqilin gətirildiyi xərəyin daşınmasına kömək etməli olur Nazim. Atası Mikayıl kişiyə deyir ki, qağa, sən bu əraziləri beş barmağın kimi yaxşı tanıyırsan, ona görə özün camaatla get və bələdçilik elə, mən Aqilin aparılmasına kömək edim, çünki Aqil bizdən ötrü gəlib, bizdən ötrü yaralanıb, burdasa hamı öz başının hayındadı, biz onu atıb gedə bilmərik, bu kişilikdən olmaz. Atası onunla razılaşır.

- Mən atamdan aralanıb Aqilin yanında qaldım. İstəsəydim, atamı da götürüb yarım saatın içində Ağdamda ola bilərdim. Atam yolda iki güllə yarası almışdı. Amma xoşbəxtlikdən güllələr daxili orqanlarına xətər yetirə bilməmişdi, ona görə də tez bir zamanda müalicə və bərpa oluna bildi. Biz isə təqribən səhər saat 7-nin yarısında Kətiyin ikinci yolu - maşın yoluna çıxdıq. Dan üzü sökülürdü. Orda insanları verdilər PK-nın qabağına. Bir vahimə yarandı ki... Camaat hamısı didərgin düşdü. Dedim gəlin nə qədər avtomatlı adam var, keçək qabağa, arvad-uşağı alaq mühasirəmizə, qabaqdakı mühasirəni birtəhər yarıb keçirək camaatı. Burda bir pərakəndəlik yarandı, kimsə fikirləşdi ki, onun əlində silah varsa, özünküləri götürüb aparacaq, amma bunlar kökündən səhv yanaşma idi, heç kim təkbaşına, köməksiz bunu edə bilməyəcəkdi. Elə də oldu. Artıq Aqili aparmağa kömək edənlərin də əksəriyyəti yaralını qoyub qaçdı, qaldıq dörd nəfər. Daha iki kilometrə qədər yolu da onu birtəhər gətirdik. Artıq saat 7 radələrində bizimlə gələn qrupun bir hissəsi o yolu sərbəst şəkildə keçdi. Bundan sonra hava işıqlandığından sonrakı qrup gəlib "donuz ferması" deyilən ərazidən Naxçıvanik kəndinin ərazisinə keçəndə orda dayanan BMP-dən əhalini atəşə tutdular. Burada yaramazların dinc əhalini necə qırmasını gözlərimizlə gördük.

**- Silahınız nə qədər vardı, Nazim?**

- Mən Sizə bir şey deyim. Biz Xocalı aeroportunun işçiləri kimi aeroportu qorumağa tam səlahiyyətli idik. 27 işçimiz vardı. Bizə verilən silahların sayı 11 ədədi keçmirdi, hər avtomata da cəmisi 872 patronumuz qalırdı, ondan başqa heç nəyimiz yox idi.

**Bu adam igid deyil, qəhrəman deyil, bəs nədir?!..**

**- Aeroport, dediniz ki, son günə qədər bizimkilərin əlində idi...**

- Son günə qədər bizdə idi.

**- Bəs Füzuli ilə aeroportu partladan vaxtlarda bura kim nəzarət edirdi?**

- O bir neçə il əvvəl, hələ sakit vaxtlarda - 90-cı ilin əvvəllərində olmuşdu. Onda ermənilərin hüquq-mühafizə orqanları idarə edirdilər aeroportu. Sonra alıb bizimkilərə həvalə etmişdilər. Çıxanda isə aeroportu içindəki sənədlərlə birgə yandırdıq. Ermənilər sonradan etiraf etmişdilər ki, onlar aeroportdan çox ehtiyatlanırmışlar, bütün Xocalının kəşfiyyat edibmişlər, bircə aeroportdan başqa, bunun da səbəbi rəhmətlik Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin peşəkarlığı olmuşdu. Amma etiraf etmişdilər ki, "boş qalmış aeroporta girəndən sonra anladıq ki, ümumiyyətlə sizin heç nəyimiz yox imiş ki..."

**- 26-sı gecəsi isə Füzuli ilə bir-birinizdən xəbərsizsiniz...**

- Zamin gəlib Ağdama keçib. Bir neçə dəfə keçib, qayıdıb insanların dalınca ki, arxadan gələnlərə də bələdçilik etsin.

**- Dördüncü dəfə gedibqayıdıbmış deyirlər...**

*(ardı var)*

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***

**Dünyada gedən qloballaşma prosesi özü ilə saysız-hesabsız problem, aşınmalar gətirib. Əslində, qloballaşma dalğası ilk izlərini salmağa başladıqda dünyanın ağıllı düşünən insanları, ekspertləri buna qarşı çıxdılar və bəyan etdilər ki, qloballaşmanın əsas hədəfi xalqların milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin, mədəniyyətlərinin əridilməsi, məhv edilməsidir.**

# Azərbaycanda "svinq ailələr"? - ölkəmizin ailə dəyərlərini ləkələməyin yeni üsulunu tapıblar...

***Fatimə Hacıbəyli:** "...bizim ailə dəyərlərimizi ləkələməyə cəhd edirlər"*



*"Ermənilərə və bir sıra Avropa ailələrinə xas olan bu kimi halların Azərbaycanda mövcud olması qətiyyən həqiqət deyil"*

Bəli, o ekspertlər haqlıdır. Doğrudan da qloballaşma öz təsirini dünyanın mənzərəsində əks etdirməkdədir.

Amma qloballaşmanın keçərli olmadığı dövlətlər, cəmiyyətlər də istisnadır. Belə cəmiyyətlərə qarşı isə qloballaşdırma layihəsini işləyib dövriyyəyə buraxan beynəlxalq institutlar, şəbəkələr ciddi əndişə keçirirlər və nə yolla olursa-olsun, həmin ölkələri ləkələməyə çalışırlar. Əlbəttə, bu halda onların köməyinə bəzi yerli muzdlu saytlar gəlir. O saytlara oxucu cəlb etmək və pul lazım olduğu üçün həmin institutların istəklərini yerinə yetirir və ölkələrə xas olmayan, həmin ölkələrin adət-ənənəsinə, milli ailə dəyərlərinə yad olan informasiyalar yayırlar.

Bu günlərdə internet saytlarından birində təsadüfən bir yazı ilə rastlaşdım. Məqalə həyat yoldaşını dəyişən cütlüklərdən (swinger) bəhs edirdi. Məqalədə "Swinger nə deməkdir?" sualına belə cavab qeyd edilib: "Swinger hərfi tərcümə ilə "həyatı sürətli yaşayan" deməkdir. Günümüzdə həyat yoldaşı dəyişdirmə kimi istifadə edilsə də, ilk mənası budur.

Aralarında həyat yoldaşı dəyişənlər üçün tez-tez istifadə edilən bu tədbirə, swing hadisəsinə bir çox hallarda həyat yoldaşı olmayan, tək insanlar da daxil olur. Adətən 2 cüt arasında olduğu kimi, daha çox cüt də iştirak edə bilər".

Məqalədə, həmçinin, "swinger ailələr Azərbaycanda da sürətlə yayılır. Qeyri-rəsmi rəqəmlərə görə, Azərbaycanda 1500-dən çox swinger ailə mövcuddur" - deyə qeyd edilir.

Diqqətimi də əsasən bu rəqəm çəkdi. Birincisi, Azərbaycanda 1500-dən çox belə ailənin olmasını hansı rəy sorğusu, sosial qeydiyyat qurumu üzə çıxarıb? Bəyəm insanlar hansısa təşkilatlara, şəxslərə öz intim həyatları, həyat tərzləri haqqında məlumat verirlər?

Əlbəttə, Azərbaycanda bu cür ailələrin mövcud olması qətiyyən inandırıcı deyil və heç bir reallığı əks etdirmir. Məsələ burasındadır ki, bizim ailə dəyərlərimizə, ailə institutumuza yad olan, onun parametrləri ilə uzlaşmayan bu məsələnin təbliğatına qoşulan bəzi saytlar, müxtəlif şəbəkələr Azərbaycanda ailə institutunu hədəfə almış qara qüvvələrin tapşırığını yerinə yetirirlər. Məlumatdan da açıq görünür ki, xüsusi təşkilatlar Azərbaycanın ailə dəyərlərini ləkələmək üçün belə həqiqətə uyğun olmayan informasiyaların yayılmasına maraq göstərirlər. Azərbaycan ailəsinin əsrlərdən bəri formalaşan ənənələrini bu şəkildə dağıtmaq, məhv etmək sözsüz ki, mümkün deyil.

"Vəfa" Sosial İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə bildirdi ki, bu, Azərbaycan xalqının ailə dəyərlərinə atılan çamurdan başqa bir şey deyil. Onun sözlərinə görə, bu gün dünyanın bir çox ölkəsində belə hallar olsa da, Azərbaycanda belə bir mənzərənin olması qətiyyən real deyil. "Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin kökündə milli-mənəvi dəyərlərin qorunması, ailə institutumuzun daha da möhkəmlənməsi, ənənələrin qorunması da dayanır. Əsrlərdən bəri formalaşan mili ailə dəyərlərimizə qarşı son illər müxtəlif şəkillərdə hücumlar artıb və sizin toxunduğunuz məsələ də onun tərkib hissəsidir. Bu gün dünyada elə təşkilatlar, institutlar var ki, onların hədəfi konkret dövlətlər, xalqlar və cəmiyyətlərdir. Lakin o institutlar heç zaman öz arzusuna çata bilmirlər. Çünki, dediyim kimi, Azərbaycanda ailə dəyərləri, ailə institutu çox güclüdür və parçalanmazdır. Qeyd edim ki, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən və qloballaşmanın mənfi təzahürlərini təbliğ edən bir sıra institutlar "Azərbaycanda 1500-dən artıq svinq ailə var" iddiasını irəli sürməklə bizim ailə dəyərlərimizi ləkələməyə cəhd edirlər. Çünki bu informasiya məqsədli şəkildə yayılır. Məlumatı oxuyan kimi onun harada, necə hazırlandığını dərhal görürsən. Bilirsiniz, Azərbaycan kimi milli dəyərlərə sadiq olan ölkələrdə belə halların olması həqiqət deyil. Onu da deyim ki, Azərbaycanı, onun milli-mənəvi dəyərlərini, ailə institutunu hədəfə alan, ləkələməyə çalışan qara qüvvələr heç zaman öz məqsədlərinə çata bilməzlər".

Bu məsələdə həmin institutların Ermənistanla Azərbaycanı səhv saldığını deyən F.Hacıbəyli qeyd etdi ki, "svinq ailələr"in sayı Ermənistanda çoxdur və onların sayı get-gedə artır. Hətta bunun müxtəlif beynəlxalq sənədlərdə də əks olunduğunu, informasiya şəklində yayıldığını da deyən F.Hacıbəylinin sözlərinə görə, bunu ermənilər özləri də dəfələrlə təsdiqləyiblər. "Çox təəssüf edirəm ki, Azərbaycan xalqının ailə dəyərlərinə diş qıcayan institutların, təşkilatların sayı çoxalıb.

Qloballaşma həvəskarları müxtəlif naqisliklərin bütün dünyaya yayılmasını istəyir, amma Azərbaycanın mənəvi və dövlət sərhədləri elələrinin üzünə bağlıdır. Bir məqamı da deyim ki, təxminən iki-üç il əvvəl Ermənistanda "svinq ailələr"in sayının kütləvi surətdə artığı haqqında məlumatlar yayılmışdı, həmin ailələr özləri də ad və soyadları ilə gündəmə gələrək, məsələni təsdiq etmişdilər. Ermənilərə və bir sıra Avropa ailələrinə xas olan bu kimi halların Azərbaycanda mövcud olması qətiyyən həqiqət deyil" - deyə F.Hacıbəyli qeyd etdi.

***İradə SARIYEVA***

# Diyarşünaslıq muzeylərinin idarəçiliyinin mərkəzləşdirilməsi - muzeylər arasında qəribə "alış-veriş" barədə söz-söhbətlər dolaşır

**Azərbaycanın bölgələrində fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərində bir sıra nöqsanların olduğu barədə dəfələrlə məlumatlar, fikirlər yayılıb. Ümumiyyətlə, bir sıra tarix-diyarşünaslıq muzeylərinə elə də ciddi nəzarət edilmədiyi, rayon rəhbərliklərinin, eləcə də Mədəniyyət Nazirliyinin aidiyyəti qurumlarının bu müəssisələrə diqqət göstərmədiyi, burada baş verən prosesləri izləmədiyi də bildirilir.**

Hətta belə iddialar var ki, muzey direktorları öz aralarında razılaşaraq eksponat "alış-verişi" də həyata keçirirlər. Tutalım, Azərbaycanın Gəncə ərazisində tapılan və yerli diyarşünaslıq muzeyinin ekspozisiyasında, yaxud da fondunda olmalı olan bəzi eksponatlar bəzən Lənkəran, yaxud Şamaxı və s. tarix-diyarşünaslıq muzeylərində peyda olur. Tədqiqatçılar muzeylərdə işləyərkən bu halı dəfələrlə aşkarlayıblar. Hətta biz özümüz də bu mövzu ilə əlaqədar yazı vermişik.

Qeyd edək ki, son günlər tarix-diyarşünaslıq muzeylərinin mərkəzləşdirilmiş qaydada idarə edilməsi gündəmə gəlib. Bəzi mütəxəssislər fikrincə, tarix-diyarşünaslıq muzeyləri Mədəniyyət Nazirliyinin yerlərdəki müvafiq qurumlarının deyil, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Milli Tarix Muzeyinin subyekti kimi fəaliyyət göstərməlidir ki, bu muzeylərə nəzarət mərkəzləşdirilmiş qaydada edilsin. Bir çox hallarda rayon tarix-diyarşünaslıq muzeylərində baş verən neqativ hallar bu məsələni aktuallaşdırıb.

Yeri gəlmişkən, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev də öz "Facebook" hesabında maraqlı bir məsələyə toxunub: "Mədəniyyət Nazirliyi bizim qazıntıların nəticələrindən çıxış edib muzeyləri təşkil edirlər. Lap yaxşı, bu belə də olmalıdır. Biz bölgənin yeni yaranan muzeylərinin tərtibatı üçün apardığımız çöl araşdırmalarından olan maddi mədəniyyət nümunələrinin bir qismini bölgə muzeylərinə verməliyik. Amma hər dəfə deyirik ki, ölkəmizin tarixi ilə bağlı bütün məsələlərlə bağlı bizə müraciət edin. Hətta tariximizin müxtəlif dövrlərinə aid xəritələrlə də bağlı. Lakin, həmişə olduğu kimi, materiallarımızı götürür və digər tərtibat işlərinə gəldikdə öz prizmalarından çıxış edirlər. Mövcud vəziyyətdən çıxış yolu birdir. Artıq vaxtı çatıb ki, bütün diyarşünaslıq muzeyləri Milli Azərbaycan Tarixi Muzeyinin tərkibinə daxil edilsin".



***Fərhad Quliyev:** "Artıq vaxtı çatıb ki, bütün diyarşünaslıq muzeyləri Milli Azərbaycan Tarixi Muzeyinin tərkibinə daxil edilsin"*

***Fariz Xəlilli:** "...tarix-diyarşünaslıq muzeylərinin yükləri ilə yüklənməsi doğru yanaşma deyil"*

MİRAS - Milli İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli isə hesab edir ki, tarix-diyarşünaslıq muzeylərinin Milli Tarix Muzeyinin tərkibinə verilməsi düzgün deyil. "Tarix-diyarşünaslıq muzeyləri mərkəzləşdirilmiş qaydada idarə oluna bilməz. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin idarəsi var ki, tarix-diyarşünaslıq muzeyləri və Bakıdakı bəzi muzeylər o quruma tabedir. AMEA-ya aid olmayan muzeylər Mədəniyyət Nazirliyi tərəfindən idarə olunur. Bununla əlaqədar qanunvericilik də var. Amma hansı şəkildə idarə olunur, bütün təlimatlar yerinə yetirilirmi, bunlar başqa məsələlərdir. Çünki muzeylərin ekspozisiyaların idarə olunması ilə əlaqədar fondlar da var. Niyə yaxşı idarə olunmur? Bu başqa məsələdir. Yəni tarix-diyarşünaslıq muzeyləri başlı-başına deyil, onlar vahid idarəçiliyə tabedirlər. Burada problem bu tarix-diyarşünaslıq muzeylərinin kadr problemidir. Cənab Prezidentin Tovuzdakı tarix-diyarşünaslıq muzeyindəki xəritə ilə bağlı iradları bu işləri görənlərin peşəkar deyil, həvəskar şəkildə iş gördüklərini göstərir. Ehtiyac olarsa, tarixçilər məsləhətçi kimi tarix-diyarşünaslıq muzeylərinə dəvət edilməlidirlər. Məsələn, bir film çəkilir və vacib deyil ki, filmi çəkənlər tarixçi olsunlar, amma bu filmin məsləhətçisi olur. Eləcə də muzeylərin ekspozisiyası qurularkən, fondları formalaşdırılarkən mütəxəssislər dəvət olunurlar. Milli Azərbaycan Tarixi Muzeyinin öz fondunun qorunmasından tutmuş, ekspozisiyasının qurulmasına qədər yetərincə problemi var. Deyim ki, Milli Tarix Muzeyi muzey standartlarını tam yerinə yetirən bir qurum deyil. Çünki dünyanın bir çox muzeyi artıq onlayn fəaliyyət göstərir, virtual muzeyləri var. O vaxt italyan dizaynerlər orada işləyərkən təklif edilən multimedia məsələlərinin hamısı yarımçıq qalıb. Ümumiyyətlə, heç olunmadı da. Məsələn, Tarix Muzeyinin internet səhifəsinə daxil olsanız, siz muzeyin içərisini tamamilə görə bilməyəcəksiniz, 360 dərəcə gəzə bilməyəcəksiniz. Amma əksər muzeyin, 1, 2, 3 nömrəli muzeylərin dünyada ekspozisiyalarını rahat şəkildə virtual olaraq gəzmək mümkündür. Fondları da darısqal otaqlardadır. Milli Tarix Muzeyi hələ öz problemlərini həll edə bilmədiyi bir halda, üstəlik, tarix-diyarşünaslıq muzeylərinin yükləri ilə yüklənməsi doğru yanaşma deyil. Bəli, tarix-diyarşünaslıq muzeylərinin problemlərini aid olduqları qurum doğru şəkildə həll etməlidir. Yəni mənim namizədlik işim də məhz bununla əlaqədar olub. Bu yaxınlarda mən fondların bir mərkəzdən idarə olunması, Milli Arxeolgiya Fondunun yaradılması ilə bağlı Prezident Administrasiyasına və Milli Elmlər Akademiyasına təkliflər vermişdim. Çox təəssüf edirəm ki, məktub elə monopoliya yaratdığını qeyd etdiyim Arxeologiya və Etnoqrafiya İnstitutunun özünün üstünə göndərilib, onların rəyi alınaraq mənə göndərilib. Cavab təbii ki, məni qane etmədi. Yenidən aidiyyəti qurumlara belə bir məktub ünvanlamağı düşünürəm" - deyə F.Xəlilli bildirdi.

F.Xəlilli bəzi diyarşünaslıq muzeyləri rəhbərlərinin öz aralarında eksponat "alış-verişi" etməsi ilə bağlı iddialar haqqında da fikir bildirdi. "Bu yanlış məlumatdır. Hər hansı bir muzey direktoru öz inventarına daxil olmuş materialı başqa muzeylərə verə bilməz, bu cinayətdir. Amma dediyiniz hal var, bu əsasən Arxeologiya və Etnoqrafiya İnstitutunun fondu ilə bağlıdır. Bəli, onların haqqı da var ki, eksponatları bölgələrə göndərsinlər. Amma yanlış olaraq bəzən, məsələn, Daşkəsənin materialını Bakıya verirlər və yaxud Bərdəyə başqa materiallar göndərirlər. Yəni belə yanaşmalar olub. Bakıdakı bir çox muzeyə getmiş olsanız, baxıb görəcəksiniz ki, heç Bakıya aidiyyəti olmayan materiallar orada nümayiş olunur. Amma bu, tarix-diyarşünaslıq muzeylərinin direktorları səviyyəsində həll olunan məsələ deyil. Məsələn, Lerikdən Şamaxıya gətirilən daş-qoç heykəllər vardı ki, bu eksponatların ora gətirilməsini, bildiyim qədər, icra başçıları akademiyanın aidiyyəti institutunun əməkdaşlarının "məsləhəti" ilə öz aralarında həll ediblər. Təəssüf ki, belə bir yanlış rəy var, bir adam akademiyada işləyirsə, demək, o peşəkardır. Qeyd edək ki, akademiyanın da çoxlu qeyri-peşəkar əməkdaşı var. Yəni orada yetərincə "ölü canlar" var. "Ölü canlar"ın da belə məsləhəti gəlib nəticədə belə diletant vəziyyətlər yaradır" - deyə F.Xəlilli qeyd etdi.

***İradə SARIYEVA***

№ 42 (4173) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

7 MART 2020-ci il

www.baki-xeber.com



## Evlərinə 2 metrlik piton "qonaq gəldi"

**Avstraliyanın Kvinslənd ştatında Qep şəhərində evə soxulmuş ilan ev sahiblərini təşvişə salıb.**

"Day.Az" bildirir ki, hadisə baş verməmişdən öncə də ər və arvad həmin ilanı evin ətrafında görüblər. İlanın ərazidən uzaqlaşdırılması müvafiq orqan və mütəxəssis tərəfindən ödənişli həyata keçirildiyi üçün onlar smiclik edib bu fikirdən vaz keçblər. Növbəti gün isə ər yuxudan oyanınca iki metrlik pitonun çarpayısının yanında yatdığını görüb. Bundan sonra, ev sahibləri məcbur olaraq mütəxəssis çağırıblar və ilandan qurtulublar. Avstraliyda pitonların bir neçə növü mövcuddur, onların uzunluğu 2-4 metr olur. Ametist pitonların isə uzunluğunun hətta 6 metrə çatdığı qeyd edilir.

## Türkiyədə on yaşlı bir uşaq son beş ayda 250 kitab oxuyub

**Türkiyə mətbuatında son zamanlar ən çox adı çəkilənlər arasında on yaşlı Atakan Kayalar da var. "AZƏRTAC" xəbər verir ki, dördüncü sinif şagirdi olan bu uşaq son beş ay ərzində 250 kitab oxuyub.**

Maraq dairəsinə yaxın kitabların fəlsəfə, fizika, riyaziyyat, iqtisadiyyat və biznesin idarə edilməsi sahəsində olduğunu deyən Atakan jurnalistlərin "Böyüyəndə nə olmaq istəyirsən?" sualına "Prezident"deyə cavab verib. Məktəblinin, eyni zamanda çox gözəl şahmat oynadığını bildirən Türkiyə Şahmat Federasiyasının əməkdaşı Atakanın bu idman növü üzrə dünya çempionu ola biləcəyini, onun həmyaşıdlarından zehni cəhətdən əhəmiyyətli dərəcədə fərqləndiyini qeyd edib.

## Bədəndəki nikotini necə təmizləmək olar?

**Siqaretin insan orqanizminə verdiyi zərərlər olduqca çoxdur.**

"Yenicag.az" bildirir ki, bədəndə nikotin səviyyəsinin yüksək olması bir sıra xəstəliklərə yol açır. Lakin onu orqanizmdən təmizləmək mümkündür. Siz də nikotinin təsirlərindən xilas olmaq istəyirsinizsə, aşağıdakı qidalar məsləhətlidir: kök, portağal, kivi, çuğundur, balqabaq, qara kələm. Qeyd edək ki, bu tərəvəzlərlə yanaşı gün ərzində su içmək lazımdır.



## "Azercell Telekom" idmançı qadınların simasında bütün xanımları təbrik etdi

**"Azercell Telekom" MMC Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin və Milli Olimpiya Komandasının məğrur tərəfdaşı olaraq 8 mart - Beynəlxalq qadınlar günü münasibətilə idmançı qadınların simasında bütün xanımları təbrik edib.**




Öz hüquq və vəzifələrini bilən, öz yolunu seçib ona doğru əzmkarlıqla addımlayan qadın maneələri aşa biləcək və uğur qazana biləcək gücə, ağıla, iradəyə sahib olduğunu sübut etmiş olur, inkişafa, təhsilə, uğura gedən yolda sərhədlərin olmadığını göstərir. "Azercell" bu günə və bu mövzuya özəl Milli Olimpiya və Paralimpiya Komandasının atletləri olan Afaq Sultanova, Elnarə Abbasova, İlahə Qasımova və Vüsalə Kərimovanın iştirakı ilə videoçarx hazırlayıb. Şirkətin Korporativ Ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya bu layihə haqqında danışarkən aşağıdakıları söyləyib: "İllər ərzində qadınlar necə görünməli, necə davranmalı, hansı xüsusiyyətlərə malik olmalı mövzusunda rəyləri çox eşitmişik, bu mövzu müxtəlif məşhurlar, qurumlar tərəfindən mütəmadi olaraq gündəmə gətirilib. Ən çox da həyatını idmana həsr edən qadınlar bu stereotiplərlə qarşılaşıb. Lakin bizim Milli Olimpiya Komitəsilə məğrur tərəfdaşlığımız, idmançı qadınlarla ünsiyyət bizə onların qəhrəmanlığı, məqsədyönlü olması ilə yanaşı, eyni zamanda, gözəl xanım, fədakar ana, uğurlu qadın olduqlarını yaxından müşahidə etmək imkanı yaratdı və bu videoçarxı çəkməyə həvəsləndirdi. Qadın atletlərimizin simasında bütün Azərbaycan xanımlarına həyat məqsədlərinə, arzularına yetmələri üçün kifayər qədər cəsarətli, güclü və xoşbəxt olmağı arzu edirik!"

Qeyd edək ki, bu günədək ölkədə sosial rifahın artırılmasına, digər sahələrlə yanaşı, idmanın inkişafına, eləcə də sağlam həyat tərzinin təbliğinə yönəlik layihələr həyata keçirən "Azercell" şirkəti ilə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi arasında fevral ayının 28-i əməkdaşlıq haqqında Memorandum imzalandı. Şirkət 2021-ci ilin sonunadək Tokio-2020 Yay Olimpiya və Paralimpiya oyunlarında Milli Olimpiya Komandasının məğrur tərəfdaşı kimi çıxış edəcək.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.




**Qoç** - Gələcək günlərin bünövrəsinin qoyulduğu vaxtdır. Yeni işlərə mənəvi və fiziki baxımdan hazırlaşın. Sizdə razılıq hissi yaradan işlərdə çalışın, amma tapşırıq və göstərişləri də unutmayın.


**Buğa** - Yaxşı gündür. Əla formadasınız və hadisələrin ritmindən, intensivlik və sayından bəhrələnə bilərsiniz. Hər şey sürətlə dəyişir, yaxın ətrafınızdakı insanlar təmaslara hazırdır.


**Əkizlər** - Hadisələr sizi təbdən çıxararaq qıcıqlandıra bilər. Ənənəvi dəyərlərə yenidən baxış və ya konkret nəticənin əldə olunması - sonuc sizdən asılıdır. Qüvvənizi dəyərləndirin, istənilən söz və ya hərəkətinizin sonrakı əks-sədasını təxminləməyə çalışın.


**Xərçəng** - Çətin gündür. Gözləntiləriniz miqyaslı olmasın. Təşəbbüs və ideyanız tərəfdaş, iş yoldaşı və ya şərikiniz tərəfindən qəbul olunmur. İstənilən işdə yalnız öz qüvvənizə və imkanlarınıza bel bağlayın.


**Şir** - Seçim və konkret qərar günüdür. Perspektivləri müəyyənləşdirin, addımlarınızı tərəfdaş və ya şəriklə razılaşdırın. İmkanlar genişlənir. Lakin indi gördüyünüz və ya sizə təklif olunan işi bəyənməsəniz də, daha çox xaosun yaranmasının səbəbkarı olmayın.


**Qız** - Rəvan gündür. Günün ilk yarısında təcili işləri müəyyənləşdirin, ilk növbədə onlarla məşğul olun. Mühüm nüansların diqqətdən yayınmasına imkan verməyin. Təmkinli, soyuqqanlı olun, emosiyalara qapılmayın.


**Tərəzi** - Səhhətinizə fikir verin. Sizə uyğun və əlverişli olan profilaktika variantlarından birini gerçəkləşdirə bilərsiniz. Gün bol təəssüratlar vəd edir. Mühüm mövzulardan birini inkişaf etdirmək üçün təməl hazırlayın.


**Əqrəb** - Baş verənlərə dərhal, tələsik qiymət verməyin. Tənqidə qapılmayın, indiyədək dediyiniz sözləri yaxın insana söyləməyin. Yaşananları məntiqlə dəyərləndirəmyə emosiyalar mane ola bilər.


**Oxatan** - Nəticənin bütünlüklə sizdən asılı olduğu gündür. Cari işlərlə məşğul olun, böyük planlar qurmayın. Rutin proseslər sizi usandırsa belə, kəmhövsələlik etməyin. Tənbəlliyə və ətalətə, süstlüyə və apatiyaya qapılmayın. Fəal olun.


**Oğlaq** - Yeni simalar görmək üçün müxtəlif yerlərdə olun. İnformasiya arayırsınız, amma sırf praktik məqamlarla maraqlanın. Axşam saatlarında yaxşıca dincəlin, sabahkı günə hazırlaşın.


**Dolça** - Hisslərlə yaşam arealınızı qaydaya salın, məkanı və emosiyaları pozitiv yeniliklər üçün təmizləyin. Axşam saatlarında xoş ünsiyyət gününün yorğunluğunu unutdurar.


**Balıqlar** - Hisslər və hissiyat günüdür. İntuisiyanızı işə salın, yaşamınızdakı qəfil dəyişikliklərı anlamağa çalışın. Bu yeniliklərin perspektivdə işlərə təsir miqyasını dəyərləndirməyə cəhd göstərin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Ən çirkli havası olan ölkələr...

**Dünyanın ən çirkli havası olan ölkələrin siyahısı açıqlanıb.**

"Milli.Az" xəbər verir ki, hava çirkliliyi dünyanın ən böyük problemlərindən biridir. Hər ölkədə az da olsa hava çirkliliyi mövcuddur. Lakin elə ölkələr var ki, hava çirkliliyi rekord səviyyədədir. Dünyanın ən çirkli havasına sahib olan ölkələri təqdim edirik: Bangladeş. Pakistan. Hindistan. Əfqanıstan. Bəhreyn. Monqolustan. Küveyt.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).

«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.